№ 04 (999) 25-31 yanvar 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# "Azərbaycan müstəqil siyasət yürüdən dövlətdir. Bu siyasət milli maraqlarımıza söykənir"




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərdədir.

Dövlətimizin başçısı yanvarın 22-də Davosda Dünya İqtisadi Forumunun prezidenti Börge Brend ilə görüşüb.

Prezident İlham Əliyev Börge Brendi Dünya İqtisadi Forumunun prezidenti seçilməsi münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar arzulamışdır. Görüşdə Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilmişdir. Söhbət zamanı Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfəyə toxunularaq ölkəmizin iştirak etdiyi qlobal layihələr, o cümlədən ötən il istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolunun, həmçinin icrası başa çatmaqda olan TANAP layihəsinin əhəmiyyəti vurğulanmışdır. Zəngin neft ehtiyatlarına malik Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdiyi, ölkəmizə turist axınının getdikcə artdığı bildirilmişdir.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların hazırkı vəziyyəti barədə məlumat vermişdir.

Söhbət zamanı Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

* * * * *

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünyanın ən böyük investisiya qurumu olan ABŞ-ın "Black Rock" şirkətinin təsisçisi, müşahidə şurasının sədri və icraçı direktoru Lourens Fink, Rusiyanın "LUKOİL" şirkətinin prezidenti Vahid Ələkbərov, "Chevron" şirkətinin korporativ biznes inkişafı üzrə vitse-prezidenti Cey Prayer, "Royal Phillips" şirkətinin baş icraçı direktoru Frans van Houten, "CISCO" şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, "VTB Bank"ın prezidenti, idarə heyətinin sədri Andrey Kostin, "SUEZ GROUP" şirkətinin baş icraçı vitse-prezidenti və "MEDEF International"ın Fransa-Azərbaycan Biznes Şurasının sədri xanım Marie-Ange Debon, "Microsoft" şirkətinin vitse-prezidenti, Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Mişel Van Der Bel və Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xəlid Əl Falih ilə görüşmüşdür.

* * * * *

Yanvarın 23-də Davosda Dünya İqtisadi Forumunun "Strateji baxış: Avrasiya" adlı interaktiv iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

**Tədbirin aparıcısı: Prezident Əliyev, bu il üçün Avrasiya ilə bağlı baxışınız nədən ibarətdir və Azərbaycan olduqca gərgin və hətta təhlükəli regionda necə davranacaqdır?**

**Prezident İlham ƏLİYEV:** Sözsüz ki, qonşuluq problem də ola bilər, üstünlük də. Bu, sizin siyasətinizdən və qonşularla əlaqələrdən asılıdır. Məncə, hər bir ölkə üçün qonşularla münasibətlər prioritet olmalıdır, xüsusilə də bizim regionda. Azərbaycanda daxili risk və ya təhdidlər mövcud deyil və biz sərhədlərimiz boyu təhlükəsizliyimizi təmin etməliyik. Bunun ən yaxşı yolu isə öz ölkənin milli maraqlarına əsaslanaraq, eyni zamanda, qonşu dövlətlərin maraqlarını anlamaqla olduqca praqmatik və səmimi münasibətlərin qurulmasıdır. Hesab edirəm ki, Azərbaycanda biz belə bir tərəfdaşlığı qura bilmişik. Ərazilərimizin 20 faizini işğal etmiş Ermənistan istisna olmaqla, Azərbaycan bütün qonşuları ilə - Xəzərin digər sahilində yerləşən Qazaxıstan və Türkmənistan daxil olmaqla, Gürcüstan, Türkiyə, İran və Rusiya ilə çox yaxşı münasibətlərə malikdir.

Regionumuzda olan hər bir ölkə ilə bizim xüsusi əməkdaşlıq formatımız var. Biz gənc müstəqil ölkəyik - cəmi 26 yaşımız var. Ancaq hesab edirəm ki, Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkə olmağa müvəffəq olmuşdur və bu, ona həqiqi müstəqil siyasət aparmağa imkan vermişdir. Bu siyasət milli maraqlarımıza əsaslanır və heç bir qonşu dövlətin maraqlarına zidd deyil.

Hesab edirəm ki, coğrafi baxımdan əsas qonşularından kiçik olan ölkə üçün düzgün balansı tapmaq və bu qonşuluqdan üstünlük kimi istifadə etmək çox vacibdir. Çünki böyük qonşular həm də böyük bazar deməkdir. Bizim üçün isə ən yaxşı bazar qonşu dövlətlərin bazarlarıdır.

Beləliklə, qarşılıqlı maraq, maraqların balanslaşdırılması və digərlərinin daxili işlərinə müdaxilə olunmaması, habelə regionda əməkdaşlıqla bağlı praqmatik yanaşmanın mövcudluğu ölkəmizin uğurlarının, daxili sabitliyin və yaxşı gələcək perspektivlərin səbəblərindəndir.

**Aparıcı: Cənab Prezident, Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi, həmçinin neft və qazdan asılılığının azaldılması səyləri haqqında danışmağınızı istərdik. Çünki bu gün qiymətlər qalxır, bu, həmin səylərə təsir edəcəkmi?**

**Prezident İlham ƏLİYEV:** İqtisadiyyatın şaxələndirilməsi bizim əsas məqsədimizdir. Düşünürəm ki, biz bu istiqamətdə yaxşı uğurlar əldə etmişik. Neftin qiyməti kəskin aşağı düşən zaman mən Azərbaycanda bildirdim ki, bizim üçün postneft dövrü başladı və biz neft və qazı unutmalıyıq. Əlbəttə, biz hazırda icra etdiyimiz layihələri başa çatdırmalıyıq, ancaq əsas gəlir mənbələri kimi biz texnologiya, innovasiya, sənaye, sahibkarlıq və kənd təsərrüfatı sahələrini nəzərdən keçirməliyik. Biz ciddi islahatlar həyata keçirməyə başladıq və onlar artıq yaxşı nəticə verir. Ötən il iqtisadiyyatımızın qeyri-neft sektoru təqribən 3 faiz və qeyri-neft sənayemiz 4 faiz artmışdır. Bu səbəbdən qeyd etməliyəm ki, artıq şaxələndirmə prosesi başlayıb və bizim bu prosesi səngitmək niyyətimiz yoxdur.

Hazırda neftin qiyməti artmaqdadır, ancaq bu, sadəcə, bizim ehtiyatlarımızı artıracaq. Biz xərclərimizin optimallaşdırılmasına nail olmuşuq. Ötən il neftin qiymətinin hələ də aşağı olmasına baxmayaraq, biz ehtiyatlarımıza daha 4,5 milyard dollar əlavə edə bilmişik. Bu isə o deməkdir ki, hətta neftin qiyməti aşağı olsa belə bizim üçün narahatlığa səbəb yoxdur. Builki büdcəmizdə neftin qiymətinin 45 dollar səviyyəsində olması nəzərdə tutulub və bundan artıq toplanan bütün vəsait Neft Fonduna yönləndiriləcəkdir.

Bununla yanaşı, biz anlamalıyıq ki, neft-qaz iqtisadiyyatımızın əsas hissəsi olmaqda davam edəcəkdir. Ancaq artıq bu gün qeyri-neft sektoru ümumi daxili məhsulun təqribən 70 faizini təşkil edir. Bizim hədəfimiz ixracımızı şaxələndirmək və ixracyönümlü qeyri-neft məhsullarının siyahısını genişləndirməkdir.

Enerji layihələrinə gəldikdə, onlar bizim üçün və region üçün əhəmiyyətlidir. Təşəbbüskarı olduğumuz layihələr regionun enerji xəritəsini dəyişmişdir. Gürcüstanın Supsa limanına qədər inşa etdiyimiz ilk kəmər Xəzər dənizini Qara dənizlə birləşdirdi. Daha sonra inşa etdiyimiz Bakı-Tbilisi-Ceyhan neft kəməri Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdi. Bundan sonra həmin marşrut boyu biz qaz kəmərini də inşa etdik. Beləliklə, biz karbohidrogen ehtiyatlarımız üçün şaxələnmiş ixrac marşrutlarına malikik və geniş mənada tərəfdaşlarımızın, o cümlədən Avropada olan tərəfdaşlarımızın enerji təhlükəsizliyini təmin edirik. Avropa İttifaqının üzvü olan bəzi dövlətlərin neftə tələbatının böyük hissəsi Azərbaycan tərəfindən təmin edilir. İki-üç ildən - "Cənub Qaz Dəhlizi" layihəmiz uğurla icra olunandan sonra onlar bizim təbii qaz ehtiyatlarımıza da çıxış əldə edəcəklər. Eyni sözləri bizim nəqliyyat layihələrimiz haqqında



da söyləyə bilərəm. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi regionun nəqliyyat xəritəsini dəyişdirdi. Bu gün bu, Çindən Avropaya olan ən qısa marşrutdur - əvvəllər bu məsafə 30-35 gün ərzində qət olunurdusa, artıq bu gün iki həftə ərzində qət edilir. Beləliklə, bu nəqliyyat və enerji şaxələndirilməsinin yeni xəritəsidir və düşünürəm ki, açıq okeana çıxışı olmayan bir ölkə kimi Azərbaycan regional nəqliyyat dəhlizinə çevrilmişdir. Ancaq əlbəttə ki, hələ də görüləcək işlərimiz var.

Gələcək neft və qazdan ibarət deyil, onlar bir gün tükənəcəkdir. Gələcək innovasiya, texnologiya, yaxşı idarəçilik, şəffaflıq və sahibkarlığa dövlət dəstəyindən ibarət olacaqdır.

**Aparıcı: Necə düşünürsünüz, əhali bu üstünlüklərdən bəhrələnməyə hazırdırmı? Yəni, təhsil və ya digər vasitələrlə?**

**Prezident İlham ƏLİYEV:** Sözsüz. Bir neçə il bundan öncə bizim əsas hədəflərimizdən biri yoxsulluq və işsizliyin azaldılması idi. Buna uğurla nail olundu. Yoxsulluq 5,4 faiz, işsizlik isə 5 faiz səviyyəsindədir. Son 15 il ərzində əhalimiz 1,5 milyon nəfər artmışdır və iş yerlərinin yaradılması bizim üçün daimi prosesdir. Ötən il biz 177 min daimi iş yeri yaratmışıq və bu, bizim siyasətimizi nümayiş etdirir. Neft-qaz sahəsi kifayət qədər iş yeri yaratmır və işsizliyin aşağı səviyyədə olması üçün biz təhsil, idarəçilik, kənd təsərrüfatı, turizm və xidmətlər sahəsinə diqqət yetirməliyik. Əhalimiz islahatlara hazırdır və islahatlar cəmiyyət tərəfindən müsbət qarşılanır. İslahatlar ağır olmamışdır. Çünki radikal islahatlar həyata keçirilərkən ilkin mərhələdə əhali bundan əziyyət çəkir. Biz dövlət yardımına ehtiyacı olanlara geniş sosial dəstək təklif etdik. Ona görə də bu proses olduqca əngəlsiz keçdi. Qarşıdan gələn illərdə biz iki il bundan öncə başladığımız dərin və geniş islahatlar siyasətini davam etdirməliyik.

**Sual: Mənim adım Endryu Uilsondur. Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin icraçı direktoruyam. Bilmək istərdim, region liderləri iqtisadiyyatın şaxələndirilməsində kiçik sahibkarlığın rolunu nədə görür və bunun təşviqi ilə bağlı hansı tədbirlər görülür?**

**Prezident İlham ƏLİYEV:** Azərbaycanda sahibkarlığın dəstəklənməsi üçün xüsusi fond fəaliyyət göstərir. Son on il ərzində həmin fond vasitəsilə özəl sektora təqribən 2 milyard dollar həcmində vəsait verilmişdir. Bu da olduqca sərfəli şərtlərlə, aşağı faizli kreditlərin verilməsi yolu ilə həyata keçirilmişdir. Burada özəl sektora həm də müvafiq tövsiyələr verilir və dövlət dəstəyi göstərilir. Biz regional inkişafa xüsusi diqqət ayırırıq. Biz bu gün regionların inkişafı ilə bağlı 3-cü dövlət proqramını icra edirik ki, bu da kiçik sahibkarlara bizneslə məşğul olmağa imkan yaratmışdır. Şərait nədən ibarətdir? İlk növbədə, infrastruktur. Biz 15 il ərzində 12 min kilometrdən artıq avtomobil yolları inşa etmişik və buraya kənd yolları da daxildir. Bu, həm xidmətlərə daha yaxşı çıxış əldə etməyə və eyni zamanda, fermerlərə məhsullarını bazara çıxarmağa imkan yaratmışdır.

Azərbaycanda qazlaşdırmanın səviyyəsi 93 faizdir. Dağlıq ərazilərin mövcudluğunu nəzərə alsaq, bu, olduqca yüksək göstəricidir. Biz elektrik enerjisinin idxalçısından ixracatçısına çevrilmişik. Bizim bu sahədə artıq imkan və mənbələrimiz var. Bununla yanaşı, hər il 100 min hektara yaxın əkin sahələri dövlət tərəfindən suvarılır. Eyni zamanda, bizim fermerlər torpaq vergisindən başqa digər vergilərdən azaddırlar. Onlar gübrənin qiymətinin 30 faizini və yanacağın qiymətinin 50 faizini ödəyirlər. Yəni, bu, biznes sahəsinə dövlət dəstəyidir və həm də əhəmiyyətli dəstəkdir.

Yəni, Azərbaycanda fermerlər üçün subsidiyalar və olduqca yaxşı investisiya mühiti var. Biz son 15 il ərzində 230 milyard dollar həcmində sərmayə cəlb etmişik və onun yarısı xarici, digər yarısı isə daxili sərmayədir. Bütün bunlar özəl sektora inkişaf üçün şərait yaratmışdır. Eyni zamanda, tədbirin əvvəlində qeyd etdiyim kimi, qonşular ilə çox yaxşı münasibətlərimiz onların bazarlarına çıxış təmin edir ki, bu da bizim qeyri-neft məhsullarımız üçün əsas bazarlardır.

Beləliklə, özəl sektorun dəstəklənməsi siyasəti davam edəcəkdir. Kiçik sahibkarlığın ümumi daxili məhsulumuzdakı payı hələ də çox aşağıdır. Gələcək illərdə bizim əsas hədəfimiz onlar üçün əlavə imkanlar yaratmaqdır ki, onlar yeni iş yerləri açsınlar və daha çox gəlir əldə etsinlər.

**Aparıcı: Prezident Əliyev. Gəlin, siyasi fəallıq və insan hüquqları ilə bağlı Avropa normasından danışaq. Bir çoxları hesab edir ki, bu, yalnız fərdlərin şəxsi inkişafına deyil, ümumi iqtisadi inkişafa da təsir edir. Yəni, bunlar bir-biri ilə əlaqəli məsələlərdir. Azərbaycanda bu sahədə vəziyyət necədir? Sizin ölkə mətbuat azadlığı ilə bağlı tənqid olunur.**

**Prezident İlham ƏLİYEV:** Hesab edirəm ki, bu tənqidin əsası yoxdur. Məsələnin mahiyyətinə baxdıqda məlum olur ki, Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən mətbuat azadlığı təmin edilir. Mətbuat tamamilə azaddır. Azərbaycan əhalisinin 80 faizi internet istifadəçisidir. İnternetin azad, senzuranın olmadığı və əhalinin mütləq əksəriyyətinin internet istifadəçisi olduğu halda mətbuat azadlığının məhdudlaşdırılması haqqında danışmaq əsassızdır.

**Aparıcı: O zaman necə olur ki, Azərbaycan mətbuat azadlığına görə dünyada 162-ci yerdədir?**

**Prezident İlham ƏLİYEV:** Bunun siyasi səbəbləri var. Bunun reallıqla heç bir əlaqəsi yoxdur. Bir daha qeyd edirəm ki, Azərbaycanda bütün fundamental azadlıqlar təmin olunur və dövlət hər bir kəndə genişzolaqlı internetin çəkilməsi ilə bağlı böyük proqram həyata keçirmişdir. Bu təsnifat olduqca qərəzli yanaşma üzərində qurulub. Hərdən bu yanaşma bədxah olur.

Bunlar Qərbdə müəyyən siyasi mərkəzlərin fəaliyyətinin məhsuludur.

**Aparıcı: Daha konkret ünvanlar açıqlaya bilərsinizmi, bu, haradan qaynaqlanır?**

**Prezident İlham ƏLİYEV:** Bu haqda daha konkret danışmaq istəməzdim, bunun haradan qaynaqlanması bəllidir. Ancaq bu nədən belədir? Bunun isə sadə səbəbi var - Azərbaycan müstəqil siyasət yürüdən dövlətdir. Bu siyasət milli maraqlarımıza söykənir. Biz ölkəmiz üçün çətinlik doğura biləcək heç bir riskli macəraya qoşulmuruq. Qeyd etdiyim kimi, bizim üçün daxili risklər mövcud deyil. Bizdə sabit siyasi və iqtisadi vəziyyət var. Üzləşə biləcəyimiz bütün potensial risklər xaricdən qaynaqlana bilər.

Azərbaycanı müəyyən ölkələr əleyhinə kampaniyalara sürükləmək cəhdləri olub. Biz hər zaman bitərəf qalmışıq. Biz heç kəsə qarşı oyun aparmırıq və heç bir riskli və milli maraqlarımıza uyğun olmayan kampaniyanın tərkib hissəsi deyilik. Yəni, hücumların səbəblərindən biri bəzilərinin Azərbaycanı kiçik dövlət üçün artıq dərəcədə müstəqil hesab etməsidir. Bəzi QHT-lərin belə reytinqləri ölkəmizi gözdən salmaq, nüfuzumuza xələl gətirmək və Azərbaycanı qeyri-demokratik dövlət kimi təqdim etmək məqsədi daşıyır. Bu isə qətiyyən belə deyil.

Bu gün biz həm siyasi, həm iqtisadi inkişafdan bəhs edirik. Bunlar ayrılmazdır. Azərbaycan iqtisadiyyatı rəqabətlilik qabiliyyətinə görə Dünya İqtisadi Forumu tərəfindən 35-ci yerə layiq görülürsə, bu, ölkədə azadlıqların təmin olunmasının yaxşı göstəricisidir. Davos Forumu bu yaxınlarda siyasətçilərə inamla bağlı yeni bir hesabat yaymışdır və Azərbaycan orada 20-ci yerdədir. İnkişaf etməkdə olan dövlətlərdə hərtərəfli inkişafa dair digər bir hesabatda Azərbaycan 3-cü yerdədir. Yəni, bəzi QHT-lərin təqdim etməyə çalışdıqları məlumatlar doğru olsaydı, biz bu uğurlara nail ola bilməzdik. Biz məsələnin mahiyyətinə və real vəziyyətə baxmalı, Azərbaycanla bağlı müəyyən gözləntiləri və siyasi motivləri reallıqdan ayrı tutmalıyıq.

* * * * *

Müzakirələr zamanı qonşu ölkələrlə əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyi bildirilmiş, regional layihələrin, o cümlədən keçən il açılışı olan Bakı-Tbilisi-Qars dəmir yolunun vacibliyi qeyd olunmuşdur. Uzunmüddətli investisiyaların yatırılması üçün maliyyə siyasətinin proqnozlaşdırılmasının, sabitliyin təmin edilməsinin önəmi vurğulanmışdır.

* * * * *

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Lazard Freres" şirkətinin sədri və baş icraçı direktoru Metyu Piqas, ABŞ-ın "Blackstone" şirkətinin həmtəsisçisi və icraçı direktoru Stiven Şvarzman ilə görüşmüşdür.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda "IBM" şirkətinin baş icraçı direktoru xanım Cinni Rometti, ABŞ-ın "Carlyle Group" şirkətinin həmtəsisçisi və icraçı direktoru Devid Rubinşteyn ilə görüşmüşdür.



# Lisa Givert: TAP layihəsi üzrə işlərin 65 faizi tamamlanıb

Trans Adriatic Pipeline

Azərbaycanın təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 65 faizi yekunlaşıb.

AZƏRTAC Anadolu Agentliyinə istinadla xəbər verir ki, bu barədə TAP-ın kommunikasiya rəhbəri Lisa Givert deyib. O bildirib ki, yanvarın ortasına boru kəməri marşrutu üzrə Yunanıstanda 518 kilometr ərazi təmizlənib, 473 kilometr boru xətt boyunca düzülüb, 457 kilometr boru qaynaqlanıb, 362 kilometr boru torpağa basdırılıb və 265 kilometr sahə əvvəlki vəziyyətinə gətirilib.

Albaniyada isə boru kəməri marşrutu boyunca 168 kilometr ərazi təmizlənib, 163 kilometr boru xətt boyunca düzülüb, 157 kilometr borunun qaynağı tamamlanıb. Həmçinin, bu ölkədə 133 kilometr boru torpağa basdırılıb və marşrut üzrə 116 kilometr sahə əvvəlki vəziyyətinə gətirilib.

"TAP-ın keçdiyi 3 ölkədə işçilər 61,5 milyon kilometr yol qət edib və 22,5 milyon nəfər-saat iş görülüb", - deyə L.Givert əlavə edib.

Qeyd edək ki, TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub Qaz Dəhlizi"nin bir seqmentini təşkil edir. Boru kəmərinin təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra, 2020-ci ilin əvvəllərində planlaşdırılır.

TAP boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Yunanıstanın şərqində - Kipoidə, digəri isə Albaniyanın qərbində - Fierdə olmaqla ümumilikdə iki kompressor stansiyasının tikintisi qrafikə uyğun davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionuna yaxın ərazidə bir ölçmə stansiyasının inşası aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən iki il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. TAP qaz boru kəməri üçün lazım olan turbo kompressorlar "Siemens" şirkəti tərəfindən istehsal edilib. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək, şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq.

Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

# Azərbaycandan Gürcüstana edilən ixracın həcmi 609 milyon 721,8 min dollar təşkil edib

Gürcüstanın Milli Statistika İdarəsindən alınan məlumata görə, Azərbaycan bu göstərici ilə Gürcüstanın ən böyük ticarət tərəfdaşları sırasında 4-cü yerdədir. Gürcüstanın xarici ticarət dövriyyəsində Azərbaycanın payı 8,2 faiz təşkil edib.

Bildirilir ki, ötən il Azərbaycan sırasında 1 milyard 589,3 milyon dollarla Türkiyə birinci, 1 milyard 183,6 milyon dollarla Rusiya ikinci, 939,5 milyon dollarla Çin üçüncü yerdədir.

Ötən 2017-ci ildə Gürcüstanın xarici ticarət dövriyyəsinin ümumi həcmi 10 milyard 707,4 milyon dollar təşkil edib ki, bu da 2016-cı



Gürcüstandan 272 milyon 172,5 min dollar dəyərində məhsul idxal edib. Azərbaycandan isə Gürcüstana 609 milyon 721,8 min dollar dəyərində ixrac həyata keçirilib. Gürcüstanın ötən il ən böyük ticarət tərəfdaşları illə müqayisədə 13,8 faiz çoxdur.

Gürcüstanın ən çox idxal etdiyi məhsulların ilk üçlüyündə isə neft və neft yağları (ümumi idxalın 8,7 faizi), minik avtomobilləri (5,9 faiz) və neft qazları (4,4 faiz) yer alıb.

# Azərbaycanda aparılan vergi islahatları beynəlxalq təşkilatların hesabatlarında yüksək qiymətləndirilib



Azərbaycanda qabaqcıl beynəlxalq təcrübənin tətbiqi sayəsində vergi inzibatçılığının təkmilləşdirilməsi, biznesin fəaliyyətinin yaxşılaşmasına səbəb olan islahatların aparılması nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da yüksək qiymətləndirilib.
Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzindən bildirilib ki, ötən il "Standard & Poor's", "Fitch", "Moody's Investors Services", "Fitch" və digər beynəlxalq reytinq agentlikləri öz hesabatlarında Azərbaycanda biznesə başlama prosedurlarının sadələşdirildiyini, vergilərin ödənişi sahəsində elektron xidmətlərin genişləndiyini qeyd ediblər. Həmçinin, Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən "Doing Business 2018" hesabatında Azərbaycan biznesin qeydiyyatı ilə bağlı ən yaxşı islahatçı ölkələrdən biri kimi qiymətləndirilib. Hesabatda respublikamızın "Biznesə başlama" (Starting business) və "Vergilərin ödənilməsi" (Paying taxes) indeksləri üzrə mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşıb ki, bu da sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı sahəsində həyata keçirilmiş tədbirlərinin, biznes fəaliyyəti üzrə prosedurların sadələşdirilməsinin mühüm nəticəsidir.

# Vergilər naziri ABŞ səfiri ilə görüşüb



Yanvarın 16-da vergilər naziri Mikayıl Cabbarov Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfiri cənab Robert Sekuta ilə görüşüb.
Görüşdə Azərbaycan və ABŞ arasında vergi sahəsində ikitərəfli münasibətlərin mövcud vəziyyəti və gələcək perspektivləri müzakirə edilib. Tərəflər mövcud əməkdaşlığın daha da gücləndirilməsi və inkişafında maraqlı olduqlarını, işgüzar əlaqələrin bu əməkdaşlığa töhfə verdiyini bildiriblər. Görüşdə ölkəmizin vergi mühiti, xarici investorlar üçün mövcud olan şərait, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# AZƏRBAYCAN BİRİNCİ ÜÇLÜKDƏ

Ümumdünya İqtisadi Forumu (ÜİF) hər il keçirilən "İnklüziv inkişaf indeksi – 2018" reytinqində inkişaf etməkdə olan ölkələr arasında Azərbaycanı 3-cü yerə layiq görmüşdür.
ÜDM-in alternativ qismində işlənib hazırlandığı "İnklüziv inkişaf indeksi" (inclusive development index, İDİ) insanların öz ölkələrinin iqtisadi inkişafını qiymətləndirdiyi meyarları dəqiq əks etdirir. Hazırkı hesabatlarda Azərbaycan 7 mümkün ballıq sistemdə 4,69 bal almışdır.

**"İnklüziv inkişaf indeksi – 2018" reytinqində TOP-10 inkişaf etməkdə olan ölkələr:**

| N | Ölkə | Bal |
|---|---|---|
| 1 | Litva | 4,86 |
| 2 | Macarıstan | 4,74 |
| 3 | Azərbaycan | 4,69 |
| 4 | Latviya | 4,67 |
| 5 | Polşa | 4,61 |
| 6 | Panama | 4,54 |
| 7 | Xorvatiya | 4,48 |
| 8 | Uruqvay | 4,46 |
| 9 | Çili | 4,44 |
| 10 | Rumıniya | 4,40 |

**"İnklüziv inkişaf indeksi – 2018" reytinqində TOP-10 inkişaf etmiş ölkələr:**

| N | Ölkə | Bal |
|---|---|---|
| 1 | Norveç | 6,08 |
| 2 | İslandiya | 6,07 |
| 3 | Lüksemburq | 6,07 |
| 4 | İsveçrə | 6,05 |
| 5 | Danimarka | 5,81 |
| 6 | İsveç | 5,76 |
| 7 | Niderland | 5,61 |
| 8 | İrlandiya | 5,44 |
| 9 | Avstraliya | 5,36 |
| 10 | Avstriya | 5,35 |

Bütünlükdə, "İnklüziv inkişaf indeksi – 2018" 74 ölkə, o cümlədən 29 inkişaf etməkdə olan ölkə arasında aparılmış və iqtisadi inkişafın səviyyəsini qiymətləndirən 3 qrupda birləşən 11 göstərici əsasında hesablanır.
Bura aiddir:
1. Artım və inkişaf (ÜDM-in, məşğulluğun, əmək məhsuldarlığının, göstərilən ömür müddətinin artımı daxil olmaqla);
2. İnklüzivlik (ev təsərrüfatının, mediana gəliri, yoxsulluq və qeyri-bərabərlik səviyyəsi);
3. Nəsillər arasında bərabərlik, yaxud ədalətlilik və dayanıqlılıq (yığım, qənaət, demoqrafik yük, dövlət borcu və ətraf mühitin çirklənməsi səviyyəsi).
Ümumdünya İqtisadi Forumunun məruzəsində göstərilir ki, bu indiqatorlar ÜDM-in artım indiqatoruna nisbətən iqtisadi inkişafın səviyyəsini daha yaxşı qiymətləndirir. Əgər məqsəd həyat səviyyəsini yüksəltməkdirsə, bu cür indeks ölkələrin iqtisadi fəaliyyətini daha düzgün əks etdirir.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Ekspert: Sahibkarlığın inkişafı üçün hüquqi mexanizmlərin işlək və əlverişli olması onlara yaradılan iqtisadi imkanlar qədər vacibdir



Hüquq üzrə fəlsəfə doktoru, "AtaBank" ASC-nin İdarə Heyəti sədrinin müavini, ekspert Səbuhi Əliyevin sözlərinə görə, ölkədə sahibkarlığın formalaşması və fəaliyyəti üzrə ali qanun olan Konstitusiya və ona uyğun qəbul edilmiş sahibkarlıq fəaliyyətinə dair xüsusi qanun və digər kompleks normativ hüquqi aktlar mövcuddur. Bu hal baza prinsipi etibarı ilə çox vacib və əhəmiyyətlidir. Lakin artıq bütün istiqamətlərdə formalaşan, müasir bilik və bacarıqlara, imkanlara malik milli sahibkarlığın inkişafı üçün hüquqi mexanizmlərin işlək və əlverişli olması onlara yaradılan iqtisadi imkanlar qədər vacibdir.
Bildiyiniz kimi, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamına uyğun olaraq, demək olar ki, bütövlükdə inkişafımızı təmin edəcək, təhlilləri, istiqamətləri və öhdəlikləri özündə birləşdirən yol xəritələri təsdiq edilmişdir. Gələcəyə hesablanmış bu əhatəli sənədlərdə xüsusi diqqəti çəkən məqam məsələlərin hüquqi tənzimlənməsinin, xüsusilə də, investorların, kreditorların hüquqlarının real olaraq qorunmasının, ümumilikdə, biznes mühitinin əlverişli və ədalətli hüquqi mexanizmlərlə təmin edilməsinin vacib olmasının vurğulanmasıdır.
Bu çərçivədə qəbul edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə kreditorların, xüsusilə də iri sahibkarlıq subyekti olan bankların üzləşdiyi hüquqi problemlərə, bank-məhkəmə münasibətlərinə toxunulur. Haqlı olaraq bildirilir ki, qeyri-işlək aktivlərin həcminin azaldılmasının ən mühüm vasitələrindən biri kreditorların hüquqlarının müdafiəsi və öhdəliklərin yerinə yetirilməsi üzrə işlək məhkəmə sistemi və icra mexanizminin olmasıdır.
S.Əliyev bildirdi ki, etiraf etmək lazımdır ki, bankları, ümumilikdə, kreditorları təqib edən bu kimi hüquqi problemlər, bir növ, məhkəmə hakimiyyətinin təsirliliyinə kölgə salır, sahibkarın buna inamını azaldır və ayrı-ayrı şəxslərin məsuliyyətsizliyinə gətirib çıxarır. Elə bu kimi səbəblər məsələnin strateji xarakter daşımasını və tez bir zamanda həllinin davamlı təkmilləşdirilməsinin vacibliyini şərtləşdirmişdir.
Qəbul edilən sənədlərdə bankların ən çox üzləşdiyi və ən əsas hüquqi problem olan məhkəmə proseslərinin müxtəlif etirazlar vasitəsilə asanlıqla uzadılmasına toxunulur və bildirilir ki, borcalan satışa çıxarılan aktivlərin qiymətləndirilməsi ilə razı olmadığı təqdirdə əmlakın satılması üzrə hərrac dəfələrlə təxirə salına bilər. Bundan əlavə, məhkəmə işlərinin çox olması və son tarixlərin dəqiq müəyyən edilməməsi səbəbindən maliyyə məsələləri üzrə məhkəmə qərarlarının icrası gec həyata keçirilir.
Bu şəraitdə məhkəmə icraçıları müəyyən işləri prioritetləşdirirlər ki, bu da digər işlərin icrasının qeyri-müəyyən müddətə uzadılmasına səbəb olur. Belə bir məqam da qeyd olunur ki, bütövlükdə, kreditorların hüquqlarının müdafiəsi mexanizmlərinin qənaətbəxş səviyyədə olmaması və məhkəmə qərarlarının icrasında intizamın nisbətən aşağı olması riskləri daha da artırmaqla, maliyyə institutlarının xərclərini yüksəldir. Tələbin təminata yönəldilməsi prosedurlarının uzun olması və bu prosesin nisbətən yüksək xərclər hesabına başa gəlməsi maliyyə vasitəçiliyini məhdudlaşdırır.
Bu isə maliyyə məsələləri üzrə məhkəmə-hüquq infrastrukturunda bu vaxta qədər aparılan islahatların davam etdirilməsi və icra prosesinin təkmilləşdirilməsi, eləcə də qanunvericilik aktlarına yenidən baxılması istiqamətləri üzrə kompleks tədbirlərin həyata keçirilməsini zəruri edir.
Qeyd olunan yol xəritəsində hüquqi çərçivəyə yenidən baxılması, məhkəmə qərarları və icrası proseslərinin sürətləndirilməsi məqsədilə 2017-2018-ci illər ərzində məhkəmə qərarlarının icrasının diaqnostikası və təkmilləşdirmə istiqamətlərinin müəyyən edilməsi, kompleks həll yollarının müəyyənləşdirilməsi qərara alınmışdır.
Ekspert hesab edir ki, kreditorlarla bağlı məhkəmə-icra problemlərinin aradan qaldırılması arzu edilən və qarşıya qoyulan bir strateji məsələ olsa da, qısa zamanda ona nail olunması gözlənilmir. Belə ki, 2017-ci ildə əsaslı dəyişiklik və müsbət nəticə müşahidə edilmədi. Cari ildə bu prosesin davam etdirilməsi nəzərdə tutulmuşdur. Problemin əsaslı şəkildə həll edilməsi üçün məhkəmə-icra sahəsində şəffaflıq, peşəkar kadr təminatı, zəruri olan maddi və digər əlavə resurslar təmin edilməlidir.
Əsas odur ki, bu problemin aradan qaldırılması üzrə siyasi istək və təhlil olunmuş strategiya mövcuddur. İndi əsas gözlənti onun reallaşmasıdır.
Bu ideyanın həyata keçirilməsi ümumilikdə məhkəmə sisteminin təkmilləşməsinə, xüsusilə məhkəmə qərarlarının icrasının təmin olunması yolu ilə məhkəmə nəzarətinin effektivliyinə daha da təkan verəcəkdir ki, bu da bankların, ümumilikdə kreditorların fəaliyyətinə olduqca müsbət təsir göstərəcəkdir.

# Xarici müəssisə və təşkilatlar əsas kapitala 8607,4 milyon manat vəsait yönəldiblər

2017-ci ildə xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 7086,4 milyon manatı (82,3 faizi) Birləşmiş Krallıq, Türkiyə, Malayziya, İsveçrə, Rusiya, İran, Yaponiya, ABŞ və Çexiya sərmayədarlarına məxsus olub.
Dövlət Statistika Komitəsindən verilən məlumata görə, tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 66,2 faizini tikinti, yenidənqurma və genişləndirmə, 10,0 faizini əsaslı təmir, 5,0 faizini cari təmir, 18,8 faizini isə digər tikinti işləri təşkil edib.
Ümumi inşaat işlərinin 84,7 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetiriblər.



# Bakı-Tbilisi-Qars dəmir yolu ilə Çindən Avropaya yüklərin daşınmasına başlanılıb



Çin Azərbaycan ərazisindən keçməklə Avropaya yük daşımağa başlayıb. Mühəndis avadanlığı və digər mallarla yüklənən ilk qatar yanvarın 19-da Urumçi şəhərindən yola düşüb. "Şərq-Qərb" Nəqliyyat Dəhlizi ilə Avropaya yük daşımalı olan qatar Qazaxıstanın limanında dayanacaq. Daha sonra yüklər dəniz yolu ilə Bakıya, buradan isə Bakı-Tbilisi-Qars dəmir yolu ilə Avropaya çatdırılacaq.
Qeyd edək ki, marşrutun ümumi uzunluğu 4186 kilometrdir. Çindən Avropaya yüklərin 8 günə çatdırılması nəzərdə tutulub. Bu il Urumçidən Avropaya 1400 yük konteynerinin yola salınması planlaşdırılır. "Şərq-Qərb" nəqliyyat dəhlizi Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Çindən Avropaya və əks istiqamətdə yüklərin tədrükü üçün nəzərdə tutulub.

# Учебный курс на тему «Успешная презентация и PR для стартапов» от Barama



Azercell Telekom на примере Центра Инноваций и Предпринимательства Barama продолжает просветительские учебные сессии с целью развития и поддержки стартапов. Одно из таких учений прошло на тему «Успешная презентация и PR для стартапов». Тренером на учебной сессии, стартовавшей в ноябре прошлого года, была участница программ образования и обучения в области медиа и коммуникаций в Германии, Великобритании и США, Эллада Мустафаева.

Участники получили полезную и практическую информацию по таким темам, как подготовка успешной презентации, оценка аудитории, подготовка, управление и доведения информации до общественности, функции услуг и специалистов по связям с общественностью, технология проведения акций и PR-кампаний, формы мероприятий по связям с общественностью, PR в социальных сетях, формирование персонального и корпоративного брендинга, развитие связей медиа, эффективное использование социальных сетей.

В последний день курса были проведены заключительные обсуждения и участникам были вручены сертификаты об успешном завершении учебного курса.

Для информации отметим, что Центр Инноваций и Предпринимательства Barama Azercell Telecom является проектом, созданным в 2009 году с целью поддержки предпринимательства в Азербайджане. Центр Barama, поддерживая новые начинания - стартапы и проекты, действующие, в основном, в области информационных технологий, способствует их превращению в полноценные компании.

За 8 лет своей деятельности центр Barama добился значительных успехов. Так, в центре было запущено более 30 проектов, 20 из которых были успешно завершены и созданы 4 успешные компании, действующие в настоящее время.

# Нефтяная корзина ОПЕК 23 января подорожала




БАКУ /Trend/ - Цена нефтяной корзины ОПЕК 23 января составила 67,32 доллара за баррель, что на 0,43 доллара больше показателя понедельника, сообщили Trend в среду в картеле.

Стоимость корзины ОПЕК определяется на основании цен на Saharan Blend (Алжир), Girassol (Ангола), Oriente (Эквадор), Zafiro (Экваториальная Гвинея), Rabi Light (Габон), Iran Heavy (Иран), Basra Light (Ирак), Kuwait Export (Кувейт), Es Sider (Ливия), Bonny Light (Нигерия), Qatar Marine (Катар), Arab Light (Саудовская Аравия), Murban (ОАЭ) и Merey (Венесуэла).

Цены на нефть в среду вернулись к снижению после существенного роста накануне. Давление на цены оказали данные об увеличении коммерческих запасов нефти и товарных запасов бензина в США.

По состоянию на 12:36 среды, стоимость мартовских фьючерсов на североморскую нефтяную смесь марки Brent снижалась на 0,31 процента - до 69,74 доллара за баррель. Цена мартовских фьючерсов на нефть марки WTI понижалась на 0,02 процента - до 64,46 доллара за баррель.

# МВФ: налоговая реформа Трампа ускорит мировую экономику, но ненадолго

Международный валютный фонд (МВФ) улучшил прогноз роста мировой экономики после налоговой реформы в США, начатой администрацией Дональда Трампа. Однако, как считают в МВФ, эффект от нее будет временным - через несколько лет американская экономика начнет тормозить, сообщает АЗЕРТАДЖ со ссылкой на BBC.

Фонд ожидает рост мировой экономики на уровне 3,9 процента в 2018-2019 годах. Еще в октябре в МВФ ждали, что мировой ВВП вырастет лишь на 3,7 процента. Основной причиной пересмотра прогноза стала налоговая реформа в США. В докладе фонда отмечается, что сокращение налогов на доходы корпораций приведет к росту инвестиций в стране. Благодаря реформе, по мнению экономистов, повысится экономическая активность не только в США, но и в других странах, торговых партнерах Америки. В первую очередь, от нее выиграют Канада и Мексика, отмечается в докладе.

Однако в фонде предупреждают, что эффект от налоговой реформы будет краткосрочным. До 2020 года рост американской экономики благодаря реформе будет ускоряться.

В 2020 году ВВП США будет на 1,2 процента больше, чем в случае, если бы налоговой реформы не было бы, подсчитали экономисты. Однако уже после 2022 года ситуация изменится, и налоговая реформа начнет тормозить экономику страны. Это связано с тем, что правительству США придется сокращать расходы из-за нехватки бюджетных средств.

Авторы доклада напоминают, что с середины 2016 года мировая экономика ускоряется, а в 2017 году, по оценке фонда, мировой ВВП вырос на 3,7 процента. Ситуация улучшилась и в финансовой сфере: рынки достаточно стабильны, а инвесторы настроены оптимистично.

В докладе экономисты фонда советуют странам воспользоваться периодом оживления в мировой экономике и провести необходимые реформы.

# Компания Bakcell начала очередной отбор проектов для участия в программе AppLab

Компания Bakcell - Первый оператор мобильной связи и ведущий провайдер мобильного интернета в Азербайджане, объявляет об окончании регистрации проектов, заявленных для участия в программе AppLab.

В ходе очередного регистрационного процесса, прошедшего в период с 15 декабря 2017 г. по 15 января 2018 г., на рассмотрение было представлено 32 проекта, в основном в таких категориях как «Деятельность в сфере IT» и «Мобильные приложения».

По результатам оценивания, авторы самых успешных проектов будут приглашены для презентации своих идей перед отборочной комиссией AppLab, состоящей из представителей руководства компании Bakcell, потенциальных инвесторов, выпускников программы AppLab и других специалистов в сфере IT. В свою очередь, комиссия отберет самые лучшие проекты для участия в программе.

Начиная с февраля 2018 года, команды-победители получат доступ в инкубационный центр AppLab, оснащённый столами и комнатами для обучения, бесплатным доступом в интернет, а также передовым оборудованием для разработки и тестирования продуктов.

Специальная команда экспертов, состоящая из представителей компаний Bakcell и других партнеров AppLab, предоставит молодым разработчикам свои советы, чтобы помочь превратить их идеи в продукты или услуги, способные конкурировать как на местном, так и на международном рынке. С запуском программы AppLab в 2014 году, местные разработчики оборудования и программного обеспечения получили возможность представить свои идеи и получить поддержку от Bakcell.

Компания продолжает искать разработчиков, а также интересные стартапы и команды в нашей стране, чтобы помочь им в признании и реализации их таланта, а также в воплощении их идей и в поиске источников финансирования и инвестиций.

Многие из проектов разработанных азербайджанскими девелоперами при поддержке AppLab уже сейчас доступны для скачивания на устройства, работающие на платформах Android и iOS.

# Bakcell и PwC объединяют силы, чтобы поддержать детей с особыми нуждами



Первый оператор мобильной связи и ведущий провайдер мобильного интернета в Азербайджане – компания Bakcell с радостью сообщает о запуске нового этапа проекта «Общение посредством искусства», осуществляемого в рамках программы корпоративной социальной ответственности Bakcell Stars совместно с United Aid for Azerbaijan (UAFA).

В этом году, Bakcell объединяет силы с одним из всемирных лидеров в области профессиональных услуг PwC (PricewaterhouseCoopers) Azerbaijan чтобы поддержать детей с особыми нуждами, обеспечить для них равные права и возможности, помочь с эффективной организацией их свободного времени и создать условия для их полноценной интеграции в общество. Благодаря объединенным усилиям Bakcell и PwC, работы в рамках проекта будут полностью профинансированы и поэтому смогут охватить еще большее количество детей.

«Мы уверены в том, что дети с особыми нуждами являются равноправными членами общества и делаем всё возможное, чтобы предоставить им возможность учиться, получать новые навыки и даже заниматься творчеством. Мы хотим помочь детям найти свое место в жизни и чувствовать себя нужными, чтобы они могли с легкостью интегрироваться в общество и получить шанс на многообещающее будущее. Поэтому, мы очень рады тому, что один из наших партнеров – PwC Azerbaijan принял наше предложение объединить силы в этом году, чтобы поддержать инициативы UAFA, и я могу с уверенностью сказать, что вместе нам удастся подарить счастье еще большему количеству детей», отметил главный исполнительный директор компании Bakcell Николаи Беккерс.

Новый этап проекта «Общение посредством искусства» поможет привнести приятные и запоминающиеся перемены в жизни детей, нуждающихся в особой заботе, помогая им в получении новых навыков в общественных реабилитационных центрах UAFA в Хачмазе и в Ясамальском районе. В рамках проекта, более 80 детей смогут получить навыки и знания, в зависимости от своих предпочтений и интересов, а также получат возможность продемонстрировать свои таланты, выступая на различных мероприятиях.

«В PwC Azerbaijan мы уважаем и ценим различия. Мы знаем, что когда представители различных культур и слоев населения, и с разными точками зрения работают вместе, мы приносим наибольшую пользу людям и обществу. В нашем бакинском офисе также работают люди с ограниченными возможностями здоровья, и наряду с этим, мы делаем всё возможное, чтобы поддержать развитие талантливых детей и молодежи», отметил управляющий партнер компании PwC Azerbaijan Мовлан Пашаев.

Компания Bakcell сотрудничает с UAFA с 2010 года и за годы совместной деятельности, более 1000 детей посетили занятия в драматических, танцевальных, художественных и творческих кружках, организованных в общественных реабилитационных центрах UAFA в Хачмазе, Гяндже и Ясамальском районе Баку.

# Компания Bakcell в очередной раз получила сертификат Socially Devoted

Первый оператор мобильной связи и ведущий провайдер мобильного интернета в Азербайджане – компания Bakcell, была награждена сертификатом Socially Devoted (социально ориентированный) за последний квартал 2017 года.

Широко известная компания Socialbakers, занимающаяся мониторингом деятельности крупных компаний всего мира в социальных сетях, проанализировала деятельность азербайджанских компаний в сети «Facebook» в период с 01 октября по 31 декабря 2017 года. Bakcell с гордостью сообщает, что согласно результатам данного мониторинга, компания продемонстрировала 100%-й результат по ответам на вопросы абонентов на своей официальной странице в Facebook. Это четвертый по счету сертификат Socially Devoted полученный компанией Bakcell в 2017 году, за количество ответов на вопросы клиентов в социальной сети Facebook. Тот факт, что на страницу Bakcell в Facebook подписано более 400 000 человек, делает это достижение еще более весомым и значимым.

Социальные медиа являются одним из самых важных средств коммуникации компании Bakcell, с точки зрения предоставления информации о продуктах и услугах широкой клиентской аудитории, а также предоставления ответов на вопросы клиентов. Компания имеет активные страницы во многих популярных социальных сетях.

Предоставление высококачественных услуг и обеспечение клиентской удовлетворенности являются одними из приоритетных направлений деятельности Bakcell. Стратегия обеспечения клиентской удовлетворенности компании основывается на опыте ведущих мировых компаний, а также на требованиях местного рынка и нуждах, и интересах представителей всех слоев населения страны.



# Fondun 2017-ci ildəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası giriş sözü ilə açaraq, gündəlikdəki məsələlər barədə məlumat verib:

1. Fondun 2017-ci ilin yekunlarına həsr olunmuş hesabatının müzakirəsi və təsdiqi;
2. Fondun 2018-ci il üçün Tədbirlər Planının təsdiqi;
3. Fondun Novruz bayramı münasibətilə keçirəcəyi fərdi jurnalist yazıları müsabiqəsinin elanının müzakirəsi və təsdiqi;
4. Fondun 2018-ci il üçün ekspertlərinin tərkibinin təsdiqi;
5. Cari məsələlər.

Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İclasda hesabat məruzəsi ilə çıxış edən icraçı direktor 2017-ci ildə respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş vermiş hadisələrin diqqət mərkəzində saxlanıldığını bildirib. V.Səfərli mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən çoxsaylı layihələr barədə məlumat verib. İcraçı direktor Fondun 2017-ci ildə gündəlik, günaşırı və həftəlik nəşr olunan 33 qəzetə maliyyə dəstəyi göstərdiyini, həmin qəzetlərdə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda nəzərdə tutulmuş 19 istiqamət üzrə 6.000 səhifədən çox yazının dərc edildiyini bildirib.



Dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin potensialından səmərəli istifadəyə, jurnalist peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi məsələlərinə xüsusi diqqət ayrıldığını deyən Vüqar Səfərli Fond tərəfindən bu məqsədlə 3 dəfə - Novruz bayramı, Azərbaycan Milli Mətbuatının 142-ci ildönümü və 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə fərdi jurnalist yazıları müsabiqələrinin təşkil olunduğunu diqqətə çatdırıb. Bundan əlavə, Fond il ərzində "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə 3 əlavə müsabiqə keçirib. Ümumilikdə, 2017-ci ildə keçirilmiş 6 müsabiqədə 609 nəfər iştirak edib, onlardan 374 nəfəri qalib olaraq mükafatlandırılıb.

2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi ili" elan olunduğunu xatırladan V.Səfərli bununla əlaqədar Fondun dini icmaların və KİV nümayəndələrinin iştirakı ilə aprel ayında Lənkəran, sentyabr ayında Xaçmaz şəhərlərində "Azərbaycanda multikultural dəyərlər: mədəni müxtəliflik və sivil birgəyaşayış məkanı" mövzusunda regional konfranslar keçirdiyini qeyd edib.

V.Səfərli həmçinin bildirib ki, mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi tədbirləri çərçivəsində Fond 2017-ci ilin may ayında Naxçıvan MR-in Naxçıvan şəhərində "Mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın genişləndirilməsi" mövzusunda regional konfrans keçirib və 20 nəfər baş redaktordan ibarət nümayəndə heyətinin Muxtar Respublikaya səfərini təşkil edib. Eyni zamanda, Fondun təşkilatçılığı ilə dekabr ayında 15 nəfər KİV rəhbərindən ibarət nümayəndə heyəti İstanbul şəhərində işgüzar səfərdə olub.

Çıxışını davam etdirən V.Səfərli Fondun 2017-ci ildə "Azərbaycan mətbuat məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzusunda layihələri maliyyələşdirdiyini, hər üç layihə üzrə aparılmış monitorinqlər zamanı media və teleradio məkanının dil problemlərinin araşdırıldığını və müvafiq təkliflərin irəli sürüldüyünü vurğulayıb.

Sonra hesabat ətrafında müzakirələr aparılıb. Müşahidə Şurasının sədr müavini İlqar Hüseynov, üzvlərdən - Cəmaləddin Quliyev, Ramiz Əskər, Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov və Ayaz Mirzəyev çıxış edərək, Fondun 2017-ci ildəki fəaliyyətini qənaətbəxş dəyərləndiriblər və hesabat yekdilliklə qəbul edilib.

İclasda ikinci məsələ kimi Fondun 2018-ci il üçün Tədbirlər Planı müzakirə olunub. 2018-ci ilin respublikamızda "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunduğunu deyən V.Səfərli hazırlanmış Tədbirlər Planında bunun nəzərə alındığını vurğulayıb. Tədbirlər Planı Müşahidə Şurasının üzvləri tərəfindən irəli sürülmüş bir sıra səmərəli təkliflər nəzərə alınmaqla təsdiq edilib.

Gündəliyə müvafiq olaraq iclasda, həmçinin Fondun Novruz bayramı münasibətilə keçirəcəyi fərdi jurnalist yazıları müsabiqəsinin elanı müzakirə olunub.

İclasda, həmçinin Fondun 2018-ci il üçün ekspertlərinin siyahısı müzakirə olunaraq təsdiq edilib.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor V.Səfərli Fondun qarşıdakı fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

## Novruz Bayramı münasibətilə fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" ilə müəyyən edilmiş dövlət dəstəyinin prioritet sahələrinə uyğun olaraq 15 istiqamət üzrə fərdi jurnalist yazıları müsabiqəsi elan edir. Müsabiqə elan olunan günədək ən azı 1 (bir) il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər. Müsabiqəyə təqdim olunan yazılara aid tələblər, yazıların qəbul qaydaları ilə www.kivdf.gov.az saytında tanış ola bilərsiniz.

Yazıların qəbulu 23 yanvar 2018-ci il tarixdə başlayır, 6 mart 2018-ci il tarixdə başa çatır.

Hər istiqamət üzrə 6 qalib müəyyən edilir:

**I yer üçün bir nəfər (500 AZN)**
**II yer üçün iki nəfər (400 AZN)**
**III yer üçün üç nəfər (300 AZN)**

Yazılar 10 ballıq sistem üzrə qiymətləndirilir, maksimum 50 bal müəyyən olunur.

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# Özəl tibb müəssisələrinin inkişafında sahibkarlığın payı artır

Dünyada o dövlətlər dinamik və sabit inkişaf edir ki, onlar gələcəyi nəzərdə tutan düşünülmüş strategiyaya malikdir. Bu gün, demək olar ki, Azərbaycan məhz belə dövlətlərdən biridir. Son illərdə Azərbaycanın sosial-iqtisadi həyatında baş verən irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri nəticəsində respublikamızın iqtisadi qüdrəti daha da artıb, ölkəmiz qloballaşan dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. İqtisadi inkişafın artım sürətinə görə Azərbaycan dünyada lider mövqeyinə çıxıb və onu inamla qoruyub saxlamaqdadır. Respublikamızda sahibkarlıq üçün hərtərəfli şəraitin yaradılması, zəngin təbii sərvətlərdən və regionların potensialından səmərəli istifadə, qeyri-neft sektorunun inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması, yerli məhsulların rəqabət qabiliyyətliliyinin yüksəldilməsi istiqamətində görülən tədbirlər ölkə iqtisadiyyatının yüksələn xətlə inkişafını təmin edib. Ölkəmizdə sosial sahədə də çox işlər görülür. Səhiyyə ildən-ilə inkişaf edir və ən müasir tələblərə cavab verən səhiyyə infrastrukturunun yaradılması, yeni xəstəxanaların tikilməsi, mövcud tibb müəssisələrinin yenidən qurulması geniş vüsət alır. Tibb ocaqları şəbəkəsinin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında mühüm uğurlar əldə edilir.

Son illər Azərbaycanda tibb sahəsində tez-tez gündəmə gələn Bioloji təbabət ifadəsi hələ də bir çoxları üçün sirr olaraq qalmaqdadır. İnsanlar bioloji təbabət dedikdə, yalnız müxtəlif bitkilər, yəni xalq təbabəti vasitəsilə müalicəni başa düşürlər. Bakıda fəaliyyət göstərən Bioloji Təbabət Klinikasının baş direktoru Elxan Yaqubovla müsahibə zamanı "bioloji təbabət" ifadəsinin məğzini açmağa çalışdıq:

**– Bioloji təbabət nə deməkdir? Klinikanızın adını və fəaliyyət istiqamətini açıqlayardınız, zəhmət olmazsa...**

– Klinikamız istifadə etdiyimiz müalicə metodlarına uyğun olaraq Bioloji Təbabət Klinikası adlanır. Bioloji təbabət deyiləndə, insanlar yanlışlıqla ilk olaraq bioloji aktiv əlavələrlə, xalq təbabəti, bitkilərlə müalicəni başa düşürlər. Bu, səhv yanaşmadır. Dünyada bioloji təbabətlə müalicənin mərkəzi Almaniyadadır. Avropanın digər ölkələrində çox sayda bioloji təbabət klinikaları mövcuddur. İsveçrədə, Belçikada, İtaliyada, Danimarkada bioloji təbabətlə müalicəyə əsaslanan klinikalar var. Kolumbiyada 30-dan artıq belə tibbi mərkəz fəaliyyət göstərir. Adları müxtəlif olsa da, bu mərkəzlərdə müalicələr bioloji təbabət metodları ilə aparılır. Məsələn, İsveçrədə 30 il bundan əvvəl yaranan "Paracelsus" klinikası, "Alpsteyn clinic" adlanan digər klinika eynilə bioloji təbabətlə müalicəni tətbiq edir. Azərbaycanda isə bu klinikanın adı məhz Bioloji Təbabətdir; eyni layihə çərçivəsində Sumqayıtda və Göyçayda da klinikalarımız fəaliyyət göstərir.

Bioloji təbabətlə müalicə müasir müalicə metodudur. Burada əsas məsələ müalicəyə yanaşma prinsipidir. Bioloji təbabətlə müalicə 2 aydan 12 aya qədər davam edə bilər. Yəni, orqanizmə vahid bir sistem kimi yanaşan bioloji təbabətlə müalicə zamanı xəstəliyin simptomları deyil, yaranma səbəbləri aradan qaldırılır. Məlumdur ki, müasir zamanda xəstəliklərin 90 faizi xronikidir. Xəstə şikayətlərinə uyğun olaraq həkimə müraciət edir və mütəmadi olaraq müalicə alır, xəstəlik isə sağalmaq əvəzinə getdikcə ağırlaşır. Həkim dərmanın dozasını, sayını artırsa da, müalicə effekt vermir.Çünki müalicə səbəbin deyil, simptomların aradan qaldırılmasına yönəlir. Akademik təbabətlə müalicə zamanı bəzən simptomlar aradan qalxsa da, xəstəliklərin çoxu tədricən xronikiləşir və daha ağır nəticələrə gətirib çıxarır. Bioloji təbabətlə müalicə zamanı istifadə olunan preparatlar insan orqanizmində sintez olunan maddələrin miqdarında olduğuna görə orqanizm tərəfindən asan mənimsənilir və heç bir əlavə təsir yaratmır. Akademik təbabətdə isə bu maddə orqanizmə kimyəvi preparatlar şəklində daxil edilir. Buna görə də bir orqana təsir edən dərman başqa bir orqanın sıradan çıxmasına səbəb olur.

Bioloji təbabətlə müalicədə xəstəlik zamanı zamanı yaranan ağrılar deyil, onu yaradan səbəblər araşdırılaraq müalicə edilir.

Ağrı orqanizmə və həkimə lazım olan bir siqnaldır ki, problemin kökünü tapmağa kömək edir. Bioloji təbabətdə ağrının yaranma səbəbi tapılır. Xəstəliklərin çoxu hüceyrənin funksiyasının pozulmasından başlayır. Bioloji təbabətdə həmin pozulmuş funksiya bərpa edilir. Yəni, artıq xroniki sayılan xəstəliklər sağalan xəstəliklər sırasına keçir.

**– Klinikanıza xəstələr daha çox hansı problemlərlə müraciət edirlər?**

– Bizim klinikaya daha çox şəkərli diabeti olan xəstələr müraciət edir. Məlumdur ki, şəkərli diabet xəstəliyinin ağırlaşması trofiki xoralara gətirib çıxarır. Hazırda Türkiyədə, İranda, Azərbaycanda, İngiltərədə də xəstənin xoralar olan ətrafını amputasiya edirlər. Lakin amputasiyadan sonda da xora yaranma prosesi dayanmır, hətta insanların dünyasını dəyişməsinə də səbəb ola bilir. Bizim klinikada artıq 500-ə yaxın trofiki xoralı xəstə müalicə alaraq tam sağalıb. Bu haqda qısametrajlı sənədli film də çəkib youtube-da yerləşdirmişik.

Bioloji təbabətlə müalicə zamanı yalnız xoralar sağalmır, müalicənin gedişində orqanizmin bioloji tarazlığı, orqanların pozulmuş funksiyası da bərpa olunur. Bundan başqa, artrozlar, artritlər, onurğa sütununun müxtəlif mənşəli yırtıqları klinikamızda uğurla müalicə edilib. Müalicə müddəti bir qədər uzun çəkir, çünki bütün müalicələr təbii yolla gedir. Rayondan gəlib Bakıda uzun müddət qalmaq imkanı olmayan xəstələri də nəzərə alaraq, Şirvan bölgəsi üçün Göyçayda klinika açmışıq. Sumqayıtda da klinikamız fəaliyyət göstərir. Cənub bölgəsi üçün Masallıda yaxın aylarda klinika fəaliyyətə başlayacaq. Bioloji təbabətlə müalicədə hər bir prosedur düzgün və dəqiq yerinə yetirilməlidir, əks-halda gözlənilən effekt alınmır. Bütün filiallarımızdakı kadrlar Bakıdakı mərkəzdə bioloji təbabətlə müalicə kurslarında tam təkmilləşdikdən sonra fəaliyyətə başlayır. Bizdə fizioterapiya çox geniş tətbiq edilir. Məsələn, fəqərəarası disk yırtıqlarını indiyə qədər əsasən cərrahiyyə əməliyyatı ilə aradan qaldırırdılar. Lakin bu halda bir fəqərədəki problem götürülsə də, səbəb aradan qalxmadığına görə problem tam həllini tapmırdı. Çünki növbəti fəqərədə patoloji proses gedirsə, əvvəlcə protruziya yaranır, sonra inkişaf edib yırtığa çevrilir və xəstəlik daha da ağırlaşır. Bioloji təbabətlə müalicədə isə patoloji prosesi aradan götürən ümumi müalicə aparılır. Orqanizm təbii sağlam vəziyyətə qayıdır. Bu problemdən birdəfəlik xilas olan onlarla insan var. Hazırda bu müalicə biotənzimləyici müalicə adlanır.

**– Qiymətlər hansı meyarlarla müəyyənləşdirilir? Xəstəliyin ağırlıq dərəcəsinə, yoxsa müalicənin müddətinə görə?**

– Hər hansı bir xəstənin və ya xəstəliyin müalicəsində konkret qiymət demək mümkün deyil: xəstəliyin ağırlıq dərəcəsindən və hər bir xəstənin fərdi xüsusiyyətlərindən asılı olaraq müalicənin müddəti və qiyməti də dəyişir.

İstifadə edilən dərman preparatları Almaniyada heç bir kimyəvi komponentdən istifadə olunmadan istehsal edilir. Hamısı təbii tərkibli, komponentləri kiçik dozalıdır, ona görə də hüceyrə səviyyəsində təsir edir. Bu dərmanları uşaqlara da, qocalara da, hamilə və südverən qadınlara da tətbiq etmək olur. Kimyəvi dərmanlardan fərqli olaraq, bioloji tənzimləyici təbabətdə istifadə edilən dərmanlarda istifadə qadağaları yoxdur.




**– Deməli, digər xəstəxanalarda "meydan sulayan" dərman firmaları sizə yol tapa bilmir...**

– Bioloji Təbabət Klinikasında kimyəvi dərman yazmaq qadağan deyil. Xəstənin kəskin vəziyyətində bizim həkimlər də kimyəvi dərmanlardan istifadə edirlər. Lakin sonra xəstəliyə səbəb olan amil aradan qaldırılır, pozulan bioloji tarazlıq bərpa edilir. Bir sözlə, bioloji təbabətlə müalicə o zaman effektli sayılır ki, xəstə dərman asılılığından xilas olsun.

**– Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə jurnalistlər üçün güzəştli müayinə aksiyası keçirdiniz. Eyni zamanda, bununla bağlı bir sualımız var: digər peşə sahibləri üçün də belə aksiyalar nəzərdə tutulurmu?**

– Müəyyən dövrlərdə bu aksiyanı müxtəlif peşə sahibləri üçün etmişik. Məsələn, bu il qeyd etdiyiniz kimi, jurnalistlər üçün 10 günlük endirim askiyası keçiririk, 8 Martda qadınlar üçün, 1 iyunda Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə uşaqlar üçün, Ramazan və Qurban bayramlarında da bir neçə günlük güzəştlər tətbiq edirik. Bunun da səbəbi odur ki, aztəminatlı ailələr də Bioloji Təbabət Klinikasının xidmətlərindən yararlansınlar.

**– Xarici klinikalarla layihələriniz, əməkdaşlığınız olurmu?**

– Biz Azərbaycanda bioloji təbabətlə müalicəni inkişaf etdiririk. Azərbaycan həkimlərini bu sahədə maarifləndiririk. Bunun üçün Azərbaycanda Bioloji Təbabət və Antihomotoksik Terapiya Cəmiyyəti Almaniyanın Baden-Baden şəhərində yerləşən Bioloji Təbabət Cəmiyyətinin xəttilə bioloji təbabətlə müalicə üsullarına aid seminar və konfranslar keçirir. Cəmiyyətin bir çox ölkələrdə nümayəndəliyi var. Azərbaycanda Bioloji Təbabət və Antihomotoksik Terapiya Cəmiyyəti 2004-cü ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçib və fəaliyyət göstərir. Cəmiyyət vasitəsilə dünyada bioloji təbabət üzrə fəaliyyət göstərən ekspertlərin təcrübələrini bölüşürük, mütəmadi olaraq onları Azərbaycana dəvət edir, kurslar, seminarlar keçiririk. Azərbaycanda istənilən həkim bu kurslarda iştirak edib, öz bilik səviyyəsini artıra bilər.

**Nailə CABBAROVA**

# "KAŞ Kİ, BİZİM TEYMUR MÜƏLLİM KİMİ AĞSAQQALLARIMIZ ÇOX OLAYDI..."

*Bu yazını 5 il əvvəl, böyük alim və ictimai xadim, görkəmli ziyalı, şair, nasir-publisist, müdrik insan Teymur Bünyadovun 85 illiyi ərəfəsində yazmışdım. Bu müdrik insan 90 illik mənalı həyatının 65 ildən çoxunu elmimizin inkişafına həsr edib. Azərbaycanda etnoqrafiya elminin yaradıcılarından biri, el ağsaqqalı Teymur Bünyadov bu gün də xalqla bir yerdədir. O bu gün də xalqı öyrənir, milli-mənəvi varlığımızı xalqa çatdırmağı özünə borc bilir. Onun haqqında çox yazmaq, saatlarla danışmaq olar. Amma mən əziz dostum Teymur Bünyadova 5 il əvvəl həsr etdiyim bu yazını ürək sözlərim kimi bir daha təqdim etmək istərdim.*

Azərbaycan elmi, tarixi və mədəniyyəti sahəsində gördüyü böyük işlərlə yadda qalan Teymur Bünyadov arxeologiya və etnoqrafiya elminin inkişafına öz töhfəsini vermiş böyük alim, ictimai xadim, görkəmli ziyalıdır. Ömrünün bu çağında belə istirahət bilməyən bu insan tariximizi əbədi yaşatmaq üçün nə qədər dəyərli işlər görmüşdür. Onun elmi istiqaməti ən çətin elm sahələrindəndir. Biz tariximizi yaşatmaq istəyiriksə, onu dərindən araşdırmalı, maddi-mənəvi mədəniyyətimizi təmsil edən abidələri, sənət əsərlərini, onun yaranma səbəblərini, ustadlarını bilməliyik. Məhz bütün bunları özünün gərgin və məhsuldar fəaliyyətinin əsas prinsipləri hesab edən Teymur müəllim ölkəmizdə arxeologiya və etnoqrafiya elminin formalaşması və inkişafına müstəsna töhfələr vermişdir. Bu sahədə Teymur müəllimin bütün nailiyyətlərini sadalamaq istəmirəm, çünki buna ehtiyac yoxdur. Bu barədə respublika mətbuatında kifayət qədər informasiyalar verilmişdir. Lakin qeyd etmək lazımdır ki, **Teymur Bünyadovun müəllifliyi ilə Azərbaycan xalqı, Azərbaycan torpağının qədim və zənginliyinə dair "Azərbaycan arxeologiyasının oçerkləri" (1960), musiqi mədəniyyətimizin ilk dəfə tarixi-etnoqrafik baxımdan nəzərdən keçirildiyi "Əsrlərdən gələn səslər" (1975) əsərləri ərsəyə gəlmişdir. O, eyni zamanda, 35 kitab və monoqrafiyanın, 1000-ə yaxın məqalənin müəllifidir. Məhz onun rəhbərliyilə 2007-ci ildə ilk 3 cildlik "Azərbaycan etnoqrafiyası" monoqrafiyası böyük tirajla nəşr olunmuşdur. O, Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar rus və ingilis dillərinə tərcümə edilmiş 3 cildlik "Qəbələnin tarixi", "Qəbələ folkloru", "Qəbələnin etnoqrafiyası"nın müəllifidir. Qəbələ demişkən, bəzi xatirələr yadıma düşdü. 2012-ci ilin oktyabr ayı idi. Qəbələdə Şeyx Allahşükür Paşazadə həzrətlərinin iştirakı ilə tədbir keçirilirdi. Tədbirdə qabaqcıl ziyalılar, alimlər, akademik Vasim Məmmədəliyev, Fəttah Heydərov, professor İsrafil Qurbanov və başqaları iştirak edirdilər. Teymur müəllim də orada idi. Rayon ictimaiyyətilə görüşündə o, "Mən neçə aydır ki, Qəbələdə həmkarlarım ilə tədqiqatlar aparıram. Axı, Qəbələ, bu yerlər tariximizin çox sirlərini hələ açmayır. Mən və həmkarlarım çalışırıq ki, bu qədim Azərbaycan diyarının bir guşəsi olan bu yerlərin tarixini araşdıraq, qədim abidələrimiz barədə məlumatları bugünkü və gələcək nəsillərə çatdıraq" dedi. Məhz bu əsərlər onun o zamanki gərgin əməyi, böyük zəhməti ilə ərsəyə gəlmişdi. Açığını deyim ki, bunlara nəzər saldıqda, bu müdrik alimin**



**əməksevərliyinə, tükənməz enerjisinə heyran qalır və öz-özünə düşünürsən: "Nə yaxşı ki, millətimizin belə ağsaqqal, müdrik ziyalıları var".**

Xatirələrdən söz düşmüşkən... Mənim həyat yoldaşım dünyasını dəyişəndə o mənim yanımda idi. Onun həyat yoldaşı da bu dünyadan köçəndə, o, mənə dedi: "Mən səni də başa düşürəm, özümü də".

Mən bu yazıda Teymur müəllimin xalq üçün, hamımız üçün son dərəcə vacib olan keyfiyyətlərini qeyd edərdim. Xatırlayıram, Teymur Bünyadov müstəqilliyimizin ilk və çox gərgin illərində dövlətimizin qorunması üçün fədakarcasına vuruşurdu. Lakin o tüfənglə deyil, sözlə, ağlın gücü ilə müstəqilliyimizə xor baxan, özlərini "ağıllı" islahatçı hesab edənlərə qarşı öz tutarlı, sağlam fikirlərini çatdırırdı. Teymur müəllim həmişə insanları bir amal, məqsəd ətrafında birləşməyə çağırır, ən çətin dövrlərdə, o cümlədən bu gün də xalqına ləyaqətlə xidmət edir. Azərbaycan müstəqillik əldə etdikdən sonra islamın milli-mənəvi dəyərlərinin təbliği işində Qafqaz Müsəlmanları İdarəsi nəzdində Vasim Məmmədəliyevin başçılığı ilə Dini-Elmi Şura yarandı. Biz müntəzəm olaraq (mən də o şuranın üzvü kimi) gündən-günə mürəkkəbləşən dünyanın bir çox problemlərini müzakirə edirdik. İslam dini, islam mənəviyyatı, islam dünyasının haqsız hücumlara məruz qalması sahəsində də Teymur müəllim çox savadlı, çox nəcib işlər görmüşdür. Teymur Bünyadov beynəlxalq aləmdə də tanınır. Onun bir sıra beynəlxalq konqreslərdə arxeologiya və etnoqrafiyaya dair çıxışları hər zaman maraqla qarşılanır.

Teymur Bünyadov elmi yaradıcılıqla yanaşı, bədii yaradıcılıqla da məşğul olmuşdur. Söz həvəskarı, bayatılar müəllifi, insan, təbiət aşiqi, poeziya həvəskarı olan Teymur Bünyadov, həmçinin elimizin, obamızın müdrik ağsaqqallarından biridir. Millətin varlığını müəyyən edən göstəricilərdən biri də elə ağsaqqallıqdır. Teymur müəllim əsl ağsaqqaldır. Küsənləri barışdırmaq, gənc ailələrin qurulması prosesinə başçılıq etmək, ağır və çətin xarakterlərlə dil tapa bilmək, ziddiyyətlərin aradan qaldırılması, əmin-amanlıq yaradılması kimi cəhətlər məhz ona məxsusdur. Teymur Bünyadov dostuna, ailəsinə sadiq, mətinli, ən çətin vaxtlarda özünü itirməyən, təmkinli olmağı bacaran bir insandır. Ürəkdən qopub gələn bayatılar müəllifi olan Teymur müəllim yazdığı hər misra ilə qəlblərə girmək, könüllərdə qalmaq arzusundadır və mən deyərdim ki, o, bu arzusuna çatıb. Kiçik yaşlarından anasını itirən, ana nəvazişinə həsrət qalan Teymurun özünün də dediyi kimi, ömrü, günü, yol yoldaşı məhz bayatıları olmuşdur. Teymur döyünən ürəyi, qayğısını çəkən, halına yanan, könlünü alan, dar günündə arxa-dayağı olan, qəmli çağlarında göz yaşını silən, könül həmdəmi saydığı bayatılar ilə yaşayan bir insandır:

***Dolan gəz,***
***Gözüm, könlüm, dolan gəz,***
***Anam birdi, vətən tək,***
***Dur başına dolan gəz.***

Teymur müəllimin zəngin bədii yaradıcılığı yalnız bu bayatılardan ibarət deyildir. O, "Ana Kürüm", "Qızıl qaya", "Mərd qalalar, sərt qayalar", "Zimqala" adlı əsərlərin, çoxsaylı hekayələrin, "Göz yaşları" (1991) romanının, "Xan çinar kölgəsində", "Anam birdi, vətən tək", "Başı çalmalı dağlar" adlı 3 cildlik bayatılar kitabının müəllifidir. Teymur Bünyadovun zəngin irsinə nəzər saldıqda, gördüyü bu qədər işə təəccüblənməmək qeyri-mümkündür. Teymur müəllimi daim narahat edən bir məsələ də var ki, bu da hamımızın ortaq yarası Qarabağ dərdidir. Onun xalqımızın qəhrəmanlıq tarixinə həsr olunmuş "Babək", "Cavanşir", "Atropat", "Qız var oğuldan qeyrətli" və digər qiymətli əsərləri vətənpərvərlik ruhunda qələmə alınmışdır. Bir çox vəzifələrdə çalışmış Teymur Bünyadov hazırda Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponomika Komissiyasının sədr müavinidir. O, eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsi nəzdində yaradılmış Dini-Elmi Şuranın, Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Arxeologiya" və "Etnoqrafiya" ixtisasları üzrə dissertasiyaların müdafiəsi şurasının sədri, Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının Tarix üzrə Problem Şurasının üzvü, "AMEA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası)", "Tarix və onun problemləri", "İpək yolu", "Təkamül", "Müasir mədəniyyətşünaslıq", "Qarapapaqlar" jurnallarının redaksiya heyətinin üzvüdür.

Öz arxeologiya və etnoqrafiya məktəbini yaratmış T.Bünyadovun böyük zəhməti, zəngin yaradıcılığı dövlət tərəfindən də yüksək qiymətləndirilmiş, 2005- ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuş, 2008-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Bu günlərdə isə Azərbaycanda etnoqrafiya elminin inkişafında böyük xidmətlərinə görə Teymur Bünyadov "Şərəf" ordeni ilə təltif edilmişdir.

Mən əziz dostum, çox dəyərli ağsaqqalımız, böyük alim, görkəmli ziyalı Teymur Bünyadova uzun ömür, möhkəm can-sağlığı arzulayıram. Ağsaqqalları, ziyalıları, alimləri uca tutan dövlət həmişə uğurlar qazanar. Mən doğma Azərbaycanımın xoş gələcəyinə bir də ona görə inanıram ki, bu qədim diyarın Teymur müəllim kimi oğulları var. Kaş ki, bizim Teymur müəllim kimi ağsaqqallarımız çox olaydı...

**Akademik Ziyad Səmədzadə**

## Teymur Bünyadov - 90

### T.Ə.Bünyadovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda etnoqrafiya elminin inkişafında böyük xidmətlərinə görə Teymur Əmiraslan oğlu Bünyadov "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 18 yanvar 2018-ci il**

---

Azərbaycan arxeologiya və etnoqrafiya elminin inkişafında əvəzsiz xidmətləri olan böyük alim, AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor, əməkdar elm xadimi, xalqımızın ləyaqətli ziyalısı Teymur Əmiraslan oğlu Bünyadovun 90 yaşı tamam olur. Azərbaycan arxeologiya və etnoqrafiya elminə aid dəyərli monoqrafiyaların,



məqalələrin müəllifi olan akademik T.Bünyadovun əsərləri təkcə respublikamızda deyil, onun hüdudlarından uzaqlarda - Türkiyə, İran, Rusiya, Ukrayna, Norveç kimi ölkələrdə də çap edilmişdir. Akademik T.Ə.Bünyadov təkcə tarixçi-etnoqraf alim, folklorşünas, nasir və şair deyil, həm də ictimai-siyasi xadimdir. O, respublikamızın hüdudlarından çox-çox uzaqlarda da tanınan alim və ziyalıdır, vətəncanlı, torpaqcanlı şəxsiyyətdir, el-oba, yurd sevgili könül adamı, qəlb sahibidir. Ömrünün ixtiyar çağında da elmi axtarışları davam etdirən, qəlbi vətən eşqi ilə döyünən bu ağsaqqal alimimizə sağlam və gümrah ömür, yeni-yeni elmi uğurlar arzulayıram.

**Nailə VƏLİXANLI,**
**AMEA-nın vitse prezidenti,**
**akademik**

---

Bu günlərdə Azərbaycan etnoqrafiya elminin banilərindən biri, tarix və arxeologiya elmlərinin inkişafında xüsusi xidmətləri olan Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor, böyük alim və ictimai xadim, nümunəvi ziyalı Teymur Əmiraslan oğlu Bünyadovun 90 yaşı tamam olur. Akademik Teymur Bünyadov həyatının 65 ildən çoxunu mənasını xalqa xidmətdə görən, millətin mənafeyini, Azərbaycanın müstəqilliyini, dövlət və dövlətçiliyini hər şeydən uca tutan elm fədaisidir. Olduqca təmənnasız, ədalətli insandır, onda ağsaqqallıq, müdriklik, yüksək ziyalılıq keyfiyyəti qabarıqdır. Azərbaycan etnoqrafiya elminin banilərindən biri Teymur Bünyadov tələbkar elm təşkilatçısı, zəngin mənəviyyatlı, geniş dünyagörüşlü, nümunəvi ağsaqqallığı ilə ad-san qazanmış, insanlara örnək olan milli sərvətimiz, nurlu şəxsiyyətimizdir. Bu nəcib insanın yeri ziyalılar, alimlər arasında elə ucadır ki,



hansı tərəfdən baxsan, onun nəcabəti, elminin nuru diqqəti çəkəcək. Teymur müəllim təmtəraqsız və iddiasız yaşamağı bacaran, könlü-gözü tox, fikri-zikri yaradıcılıqda olan, yazıb-yaratmaq ehtirası ilə yaşayan nümunəvi ziyalıdır.

Akademik Teymur Bünyadov bu gün ömrünün kamillik zirvəsindədir. Dünya uzunömürlüləri sırasında vüqarla addımlayır. Bu böyük alim və müdrik ağsaqqalı 90 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, bundan sonra da ömür payını gümrah və mənalı yaşamasını arzulayıram.

**Qəzənfər Paşayev,**
**filologiya elmləri doktoru,**
**professor**

---

Azərbaycan xalqının, sözün geniş mənasında, tarixini öz təfəkküründə akademik Teymur Bünyadov qədər dərindən (və bütün miqyası, təbiiliyi, hərarəti, mütəvazeliyi ilə) əks etdirən ikinci bir tarixçi təsəvvür etməyə çətinlik çəkirəm… Ona görə yox ki Teymur Bünyadovu çox istəyirəm; ona görə yox ki onun doxsan yaşının tamam olduğu bu günlərdə xatri xoş olmaq üçün bu sözləri deyirəm; ona görə ki Teymur Bünyadovun daxili aləminə, ruhuna, təbiətinə bələdəm.

Əlbəttə, öz xalqının xalqşünası – etnoqrafı olmaq çox çətin məsələdir. Hər şeydən əvvəl, ona görə ki onun adət- ənənələri, məişəti, etnoqrafik xarakteri səni hər tərəfdən elə əhatə edir, elə çulğayır, varlığına elə hakim kəsilir ki, çox vaxt nəyin söz-söhbət, nəyin isə elmi ümumiləşdirmə və ya modelləşdirmə predmeti olduğunu kəsdirə bilmirsən.

Akademik Teymur Bünyadov işin yüngülünü yox, ağırını seçir, yolun asanı ilə yox, çətini ilə gedir. Və məlumdur ki, o, «kənar»dan sitat gətirməyə maraq göstərməyən, istinadı tarixşünaslıqda yox, tarixin özündə



axtaran tədqiqatçılardandır…

Teymur müəllim Azərbaycan cəmiyyətinin yaxşı tanıdığı, ehtiram göstərdiyi ağsaqqallardan biri, görkəmli ictimai xadimdir. Millət vəkili olub. Eloğluları ona məhəbbətini «Teymur qağa» deyə müraciət etməklə bildirirlər…

Başqa xalqların xalqşünası olmaq asandır, xalqının xalqşünası olmaqsa çətindir… Çox çətindir… Təsəvvür edilməyəcək qədər çətindir…

Akademik Teymur Bünyadov nə qədər «tarix»in bu günüdürsə, o qədər də «bu gün»ün tarixidir…

**Nizami Cəfərov,**
**filologiya elmləri**
**doktoru, akademik**

# AZƏRBAYCAN XALQININ BÖYÜK ZİYALISI, ALİMİ, AĞSAQQALI...

## AKADEMİK TEYMUR BÜNYADOVUN 90 İLLİK YUBİLEYİ ƏRƏFƏSİNDƏ DÜŞÜNCƏLƏR...

*...Elə insanlar var ki, nə insanların qəlbində, nə də tarixdə heç bir iz qoya bilmirlər. Elə insanlar da var ki, onların əməlləri, addımları, fərdi xüsusiyyətləri, əvəzsiz xidmətləri nəticəsində həm tarixdə, həm də insanların qəlbində çox dərin izlər qoyulur. Belə tarixi və əvəzsiz ziyalılarımızın sırasında canlı tariximiz, alimimiz, yazıçımız, ağsaqqalımız, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, professor* ***Teymur Əmiraslan oğlu Bünyadovun*** öz yeri vardır.

***90 illik yubileyini*** *yaxın vaxtlarda qeyd etməyə hazırlaşdığımız* ***akademik Teymur Bünyadov*** *bizimlə olan çoxsaylı görüş-söhbətlərində qeyd edir ki, Yer kürəsinin yaşı* beş milyard ilə yaxın olsa da, i*nsanlığın tarixi cəmi üç milyon ildir. İnsan təbiətin tacı, yer üzünün əşrəfidir. Ulu insan alidi, adildi, aqildi. Başlanğıcda torpağın nə sahibi, nə sahib çıxanı, nə gözləyəni, nə gözətçisi olub. İnsan bu dünyaya göz açdığı vaxtdan da torpaq istəyi, Vətən sevgisi yaranıb. Zaman keçdikcə bu istək, bu arzu daha da güclənib, daha da müqəddəsləşib. İnsan anasını sevdiyi kimi, v*ətənini də sevib, yolunda çox qurbanlar verib. *Vətən də qədimdir, ana da. İkisi də əzəlidi, əbədidi, qoşa yaranmışlardır. Anamız Azərbaycanın dövrü-qədimdən sinəsindən od parlayıb, atəş saçıb. Əcdadlarımız bu oda, bu işığa pənah gətiriblər, bu inanca sitayiş ediblər. Adlarını oddan alıb, Odlar ölkəsi olublar. Yurdumuz ana v*ətən, ana torpaq kimi sevil*ib. Yanar oddu, sönməz ocaqdı v*ətənimiz. *Cəngavərlər yurdudur Azərbaycan. Sayagəlməz igidlərimizin qanı ilə yoğrulub bu torpaq, əməllə dastanlaşıb bu müqəddəslik. Azərbaycan xalqı dünyanın ən qədim, qəhrəman və mədəni xalqlarından biridir. Bu xalqın yerləşdiyi ərazidə ulu əcdadlarımız yaşayıb, yaradıb və yadelli işğalçılara qarşı mübarizə apararaq hər zaman qalib gəliblər. Bu torpağın hər daşında, hər qayasında xalqımızın qəhrəmanlıq salnamələri, qəhrəmanlıq abidələri var. Azərbaycan xalqı torpağına, v*ətəninə bağlıdır. Ondan bir qarış belə kimsəyə vermək haqqında düşünmür. Torpağı, vətəni uğrunda döyüşməyə, canından, qanından keçib şəhid olmağa hazırdır. *Kəlbəcərimiz, Zəngilanımız, Laçınımız təkcə cənnətməkan olmayıb, həm də hərbi-strateji əhəmiyyət kəsb edən ərazilərimizdir. Şuşamız bir basılmaz qalamızdır. Şuşamız dağdan arana açılan pəncərə, aydınlıq, işıqlıq paylayan ucalıqdır. Düşmənlərə, yadellilərə göz dağıdır. Onları heç zaman düşmən tapdağında qoymarıq!*

*...Fəxr edirik, qürur duyuruq ki, belə gözəl fikirlərin, ülvi arzuların, optimist düşüncələrin sahibi olan* ***akademik Teymur Bünyadov bizim müasirimizdir, iş yoldaşımızdır, müəllimimizdir, ağsaqqalımızdır, yolgöstərənimiz, məsləhət verənimizdir!***

...Əməkdar elm xadimi, "Şöhrət" ordenli, AMEA-nın tarix üzrə Abbasqulu ağa Bakıxanov adına mükafatının ilk laureatı, akademik Teymur Bünyadovun bir şəxsiyyət olaraq inkişafı, tərəqqisi, hər şeydən əvvəl, onun zəhmətilə, əzmkarlığıyla, gecə-gündüz çalışmasıyla bağlıdır. O, indi də gecə-gündüz durmadan çalışır.

35 elmlər namizədi, 10-dan çox elmlər doktoru yetişdirmişdir. Onun həyatı ilklərlə doludur. O, Azərbaycanda arxeologiya və etnoqrafiya sahəsində ilk elmlər doktoru, ilk professor, akademiyanın ilk müxbir üzvü, ilk akademikidir. Bu sahədə ilk "Şöhrət" ordeni alan, ilk Əməkdar elm xadimi olan, ilk "Azərbaycan arxeologiyası oçerkləri" kitabını yazan da Teymur müəllimdir. O, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Arxeologiya" və "Etnoqrafiya" ixtisasları üzrə dissertasiyaların müdafiəsi şurasının sədri və respublika elmi tədqiqatların tərkibi və əlaqələndirilməsi şurasının Tarix üzrə Problem Şurasının üzvüdür.

…***Teymur müəllimin doğulduğu*** Qazaxın Şıxlı kəndindən Osman Sarıvəlli, Mehdi Hüseyn, İsmayıl Şıxlı, İsa Hüseynov, Vidadi Babanlı və s. kimi onlarla ziyalılar yetişib. Qazaxın 600-ə yaxın alimi var. Görünür, burda Tiflisin, Qorinin Qazaxa yaxın olmağının da rolu var. Onun yeddi yaşı olanda anası vəfat edib, səkkiz yaşında isə atası "xalq düşməni" kimi güllələnib. On doqquz ilini qəm-kədər içində keçirib. On doqquz ildən sonra əl boyda kağız veriblər ki, atan qanunsuz yerə güllələnib. Amma Teymur Bünyadov mübariz olub, sınmayıb. Rayonda ilk dəfə qızıl medal çıxanda, onu alan iki nəfərdən biri Teymur müəllim olub. Qızıl medalla universitetin tarix fakültəsinə imtahansız qəbul olunub. Universiteti bitirəndən sonra Moskvaya gedib. Arxeologiya üzrə aspiranturaya imtahan verib. Universiteti uğurla başa vuran T.Bünyadov az sonra SSRİ Elmlər Akademiyasının Maddi Mədəniyyət Tarixi İnstitutunun aspiranturasına daxil olmuş, məşhur Qafqazşünas alim, Lenin mükafatı laureatı Y.İ.Krupnovun rəhbərliyi altında namizədlik dissertasiyası müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Müdafiədə iştirak edən Qafqazşünas alimlər dissertasiya işinə yüksək qiymət vermiş, bu mövzuda tədqiqat əsərinin təkcə Azərbaycanda deyil, hətta bütün Qafqazda ilk dəfə qələmə alındığını və tarixşünaslıq baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışlar. Öz tədqiqatı ilə Qafqazın əkinçilik mədəniyyətinin vətəni olduğunu sübut edən gənc alim üçün təcrübəli həmkarlarının verdiyi bu qiymət böyük uğur idi.

Moskva həyatını başa vurub, 1955-ci ilin mayında vətənə dönən T.Bünyadov sonrakı elmi fəaliyyətini Azərbaycan Elmlər Akademiyasının Tarix, 1993-cü ildən isə Arxeologiya və Etnoqrafiya İnstitutunda davam etdirir. 1968-ci ildə o, "Azərbaycanın qədim və orta əsrlərdə təsərrüfat həyatı" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, arxeologiya və etnoqrafiya elmləri sahəsində respublikada ilk tarix elmləri doktoru alimlik dərəcəsi almış, 1970-ci ildə isə professor adına layiq görülmüşdür. Taleyini elmə bağlayan bu zəhmətkeş alim 1989-cu ildə Azərbaycan EA-nın müxbir üzvü, 2001-ci ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir.

1960-cı ildə Teymur Bünyadovun irihəcmli "Azərbaycan arxeologiyası oçerkləri" adlı kitabı çap olundu. Respublikada bu mövzuda ilk dəfə hörmətli alimimiz tərəfindən qələmə alınan bu monoqrafiyada Azərbaycan xalqının dünyanın ən qədim və mədəni xalqlarından biri olduğu tutarlı dəlillərlə sübuta yetirilir. Özündə Azərbaycanın ən qədim dövrdən XV əsrə qədərki tarixini əks etdirən bu əsər, həmçinin gənc arxeoloqların yetişməsində xüsusi rol oynamış, mütəxəssislərin bu gün də müraciət etdiyi kitablardan olmuşdur.

Azərbaycan arxeologiya və etnoqrafiya elminə aid 35 monoqrafiyanın və 821 məqalənin müəllifi olan akademik T.Bünyadovun əsərləri təkcə respublikamızda deyil, onun hüdudlarından uzaqlarda - Türkiyə, İran, Rusiya, Ukrayna, Norveç kimi ölkələrdə də çap edilmişdir. İctimai elmlər sahəsində mühüm hadisə sayılan, 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə yüksək tirajla nəşr edilmiş üçcildlik "Azərbaycan etnoqrafiyası" fundamental əsərinin təşkilatçısı, baş redaktoru və böyük hissəsinin müəllifi T.Bünyadovdur. Bu monoqrafiyanın cildlərində Azərbaycan xalqının təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyəti, sənətkarlığı, ailə-məişəti və s. öz əksini tapmışdır. Görkəmli alimin son dövr fəaliyyəti də çox maraqlıdır; onun bilavasitə rəhbərliyi ilə üçcildlik "Qəbələnin tarixi", "Qəbələnin etnoqrafiyası" və "Qəbələ folkloru" kitabları yazılaraq, rus və ingilis dillərinə tərcümə edilmiş, yüksək tirajla çap olunmuşdur.

Teymur Bünyadovun yarım əsrdən çox elmi yaradıcılığını təhlil etdikcə, Azərbaycan elmində nəhəng və yeni bir yolun əsasının qoyulduğunu aydın şəkildə görürsən. Onun hər bir əsəri, monoqrafiyası, kitabı, çıxışı tədqiqata cəlb edilməli, geniş şəkildə araşdırılmalıdır. Çünki onun əsərlərində Azərbaycanın qədim tarixi, arxeologiyası, etnoqrafiyası, eləcə də Teymur Bünyadovun özünün görə-görə, gələ-gələ yazdıqları əksini tapır.

Akademik Teymur Bünyadov uzun illər bir sıra elmi konfransların iştirakçısı olmuş, Azərbaycanın arxeologiya və etnoqrafiya elmlərini layiqincə təmsil etmişdir. O, 1960-cı ildə şərqşünasların Moskvada keçirilən XXV Beynəlxalq konqresində, 1964-cü ildə antropologiya və etnoqrafiya elmləri üzrə Moskva VII Beynəlxalq konqresində, 1971-ci ildə arxeoloq və etnoqrafların Tiflisdə keçirilən ümumittifaq sessiyasında, 1990-cı ildə İstanbulda keçirilən Birinci Millətlərarası Azərbaycan-türk qurultayında, 2004-cü ildə Moskvada məşhur Qafqazşünas alim Y.İ.Krupnovun 100 illiyinə həsr edilmiş elmi sessiyada, 2007-ci ildə Parisdə keçirilən "Azərbaycanın xalça sənəti" adlı Beynəlxalq konfrasda və başqa elmi forumlarda etdiyi dərin məzmunlu çıxışları ilə dünya alimlərinin böyük marağına səbəb olmuşdur. Azərbaycanın bütün bölgələrini qarış-qarış gəzən, topladığı etnoqrafik materialları özünəməxsus dəsti-xətlə yazıya gətirən xalqşünas akademikin "Ana Kürüm", "Qızıl qaya", "Mərd qalalar, sərt qayalar", "Zirvəqala" kimi əsərlərində vətənin müxtəlif guşələrinin tarixi, etnoqrafiyası öz əksini tapmışdır.

Akademik T.Ə.Bünyadov təkcə tarixçi-etnoqraf alim deyil, həm də folklorşünas, nasir və şairdir. Onun 1991-ci ildə yüksək tirajla nəşr edilən "Göz yaşları" romanı, "Xan çinar kölgəsində", "Anam birdi, vətən tək", "Başı çalmalı dağlar", "Ana laylası beşik nəğməsidir..." adlı dördcildlik bayatı kitabları oxucuların böyük sevgisi ilə qarşılanmışdır. Bu əsərlərdə xalqımızın zəngin mənəvi dünyası, düçar olduğu ədalətsiz müharibənin ağrıları, vətənsevər oğul və qızların döyüş əzmi işıqlandırılır. Qəlbi vətən eşqi ilə döyünən qeyrətli alim-yazıçı havadarlarının köməyi ilə bədxah ermənilərin Dağlıq Qarabağımızı işğal etdiyi bir vaxtda gənclərə mərdlik, mübarizlik və döyüşkənlik ruhu aşılamaq məqsədilə Azərbaycan türklərinin qəhrəmanlıq tarixindən bəhs edən "Qız var oğuldan qeyrətli", "Cavanşir", "Atropat", "Babək", "Şəmsəddin Eldəniz" və s. kimi elmi-populyar əsərlərini çap etdirmiş, dəfələrlə cəbhə bölgələrində əsgərlər qarşısında çıxış etmişdir.



T.Bünyadov təkcə elmi və bədii yaradıcılıqla deyil, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, uzun illər Bakı Dövlət Universitetində, N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bakı Slavyan Universitetində "Azərbaycan tarixi", "Qədim dünya tarixi" və "Arxeologiya" fənlərindən mühazirələr oxumuşdur. Öz elmi məktəbini yaratmış xalqşünas alimin gənc kadrların hazırlanmasında da gərgin əməyi olmuşdur. O, ixtisaslaşmış elmi şuraların, həmçinin elmi-tədqiqat işlərinin ekspertizasında yaxından iştirak etməklə gənc alimlərin dissertasiya işlərinin müdafiələrində həmişə özünün prinsipial mövqeyi, obyektivliyi və qayğıkeşliyi ilə seçilmişdir. Elmi rəhbərliyi ilə yanaşı, indiyə qədər digər onlarla namizədlik və doktorluq dissertasiyalarına opponentlik etmiş və gənc alimlərin həyata vəsiqə almasına xeyir-dua vermişdir.

Qeyd etdiyimiz kimi, akademik Teymur Bünyadov uzun illər ölkənin bir çox ali təhsil müəssisələrində yüksəkixtisaslı mahir pedaqoq kimi, həmişə tələbə və aspirantlara müxtəlif mövzular üzrə mühazirələr oxumuşdur. Eyni zamanda, o, həm də yüksək səviyyəli təhsil təşkilatçısı kimi, Milli Məclisin Elm-Təhsil məsələləri Daimi Komissiyasının sədri olaraq Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasında, Boloniya təhsil sisteminə keçirilməsində, ölkədə üçpilləli bakalavriat-magistratura-doktor təhsil formasının bərqərar olmasında böyük xidmətlər göstərmişdir. Xatırlatmaq istərdik ki, akademik T.Bünyadov Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 24 sentyabr 1994-cü il tarixli fərmanı ilə yaradılmış Dövlət Ali Ekspert Komissiyasının üzvü kimi Azərbaycanda özəl təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və dövlət qeydiyyatı mexanizminin yaradılması və həyata keçirilməsi ilə bağlı tədbirlərin təşkilində çox yaxından iştirak etmişdir. Həmin illərdə Teymur müəllim müstəqil Azərbaycan dövlətində təhsilin, xüsusilə də özəl təhsilin təşkili və inkişafı sahəsində dövlət komissiyalarının üzvü olaraq, təhsilin, elmin inkişafının təmin edilməsi üçün normativ-hüquqi bazanın yaradılması, inkişaf proqramlarının hazırlanması üzrə çox səmərəli işlər görmüşdür.

"Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"-nın hazırlanmasında da Teymur müəllimin fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Akademik Teymur Bünyadovun iştirakı ilə hazırlanan islahat proqramında ölkə vətəndaşlarının təhsil almaq hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ-hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılması, eləcə də onun infrastrukturu və kommunikasiya sisteminin müəyyən edilməsi, yeni idarəetmə modelinin yaradılması, təhsilin perspektiv dövrdə inkişafının təmin edilməsi nəzərdə tutulmuşdur.

T.Bünyadov həm də ictimai-siyasi xadimdir. O, 1995-ci ildə I çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmiş, Elm və Təhsil Məsələləri Daimi Komissiyasının sədri seçilmiş, eyni zamanda, Azərbaycan-İrlandiya parlamentlərarası komissiyasının sədri olmuşdur. 1994-cü ildən Yeni Azərbaycan Partiyasının üzvü olan T.Bünyadov prezident seçkilərində ümummilli lider Heydər Əliyevin və ölkə prezidenti İlham Əliyevin vəkili kimi çıxış etmiş, Qarabağ, Gəncəbasar, Qazax-Ağstafa, Lənkəran və Şirvan bölgələrində geniş təbliğat işi aparmışdır. O, AMEA-nın Humanitar və İctimai Elmlər bölməsinin akademik katibinin müavini, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının üzvü, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında özəl təhsil müəssisələrinin fəaliyyətini tənzimləmək məqsədilə yaradılan Dövlət Ali Ekspert Komissiyasının üzvü, Türkiyə-Azərbaycan Millətlərarası Komissiyasının və Respublika Ziyalılar cəmiyyətinin üzvü olmuşdur.Görkəmli alim T. Bünyadov Azərbaycan Respublikası Milli Məclisi yanında Toponimika Komissiyasının sədr müavini, Qafqaz Müsəlmanları İdarəsi nəzdində yaradılmış Dini-Elmi Şuranın üzvü, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Arxeologiya" və "Etnoqrafiya" ixtisasları üzrə dissertasiyaların müdafiəsi şurasının sədri, Respublika elmi tədqiqatlarının tərkibi və əlaqələndirilməsi şurasının Tarix üzrə Problem Şurasının üzvü, "AMEA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası)", "Tarix və onun problemləri", "İpək yolu", "Təkamül", "Müasir mədəniyyətşünaslıq" və "Qarapapaqlar" jurnallarının redaksiya heyətinin üzvüdür.

Elmi, pedaqoji və ictimai-siyasi fəaliyyətinin nəticəsi olaraq akademik T.Bünyadov 2005-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmiş, 2008-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Akademik Teymur Bünyadov haqqında bu sadalananlar onun şəxsiyyətini, böyüklüyünü, millət naminə gördüyü işləri izah etməkdə acizdir. Bir əsrə yaxın ömür yolunu vərəqləyəndə Teymur müəllimin həyatın müxtəlif sahələrində Azərbaycan xalqının, milli-mənəvi dünyagörüşümüzün inkişafında, milli ruhumuzun dərkində, elmimizin inkişafında, gənc nəslin vətənsevərlik ruhunda tərbiyəsində oynadığı rolun şahidinə çevrilirsən.

...***Akademik Teymur Bünyadov*** "Əsrlərdən gələn səslər" əsərində xalqımızın musiqi mədəniyyəti irsini ilk dəfə tarixi-etnoqrafik baxımdan qələmə almışdır. O, iki ildən artıq bir müddət ərzində «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətində böyük maraqla izlənən "Əsrlərdən gələn səslər" adlı verilişin ssenari müəllifi və aparıcısı olmuşdur. "Kölgələr sürünür" bədii filminin ekran həyatı qazanmasında elmi məsləhətçi kimi T.Bünyadovun xidməti böyükdür.

20 Yanvar faciəsi Teymur müəllimin bayatılarla dolu ürəyini dilə gətirib. O dövrdə Bakı, bütün Azərbaycan qan ağlayırdı. O, nə yata bilirdi, nə dura bilirdi, nə də özünə yer tapa bilirdi... Səhərə yaxın ilk dəfə bir bayatı gəldi dilinə:

***Qan sızlar,***
***Sinəm qandır, qan sızlar,***
***Qansıza bel bağlama,***
***Qansız olur qansızlar.***

O vaxtdan sonra bu hadisə Teymur müəllimə böyük mənəvi təsir etdi. Onun dördcildlik "Bayatılar" kitabı çıxdı. Kitablarda vətənə, xalqa aid çox bayatılar var:

***Açılmır,***
***Yollar bağlı, açılmır,***
***Qarabağın bəxt qapısı,***
***Tilsimlənib açılmır.***

... ***Akademik Teymur Bünyadov həm e***limizin, həm də elmimizin ağsaqqalıdır. Onlarla alim Teymur Bünyadov məktəbinin yetirməsidir. Teymur müəllim təkcə elmdə məktəb yaratmamış, eyni zamanda, insanlıq məktəbini, tərbiyə məktəbini yaratmışdır. Teymur müəllim Azərbaycan xalqının sevimlisi, yüksək qiymətləndirdiyi bir ağsaqqaldır. Onun hər bir işdə gənclərə dəstək olması, qol-qanad verməsi həmişə yüksək dəyərləndirir. Əsərləri ilə Azərbaycan gəncliyinə, özündən sonrakı nəsillərə milli ruhumuzu, milli dünyagörüşümüzü aşılamışdır. Kitabları ilə bir ömür sarayı ucaldan akademikin əsərləri milli ruhumuzun təcəssümüdür. Etnoqrafik tədqiqatları bədii şəkildə, şirin dillə oxuculara təqdim edən Teymur Bünyadov tarixi yaddaşımızı populyarlaşdırır, zənginləşdirir.

Teymur müəllimin hər əsəri ayrıca tədqiqatın mövzusudur. Əgər XX əsrin ortalarında yazdıqları monoqrafiyalar Teymur Bünyadov yaradıcılığının, Azərbaycan etnoqrafiyasının özülləri idisə, onun redaktorluğu ilə buraxılmış üçcildlik "Azərbaycan etnoqrafiyası" kitabı etnoqrafiya elmimizin tacıdır. Bu kitablarda Azərbaycan etnoqrafiyasının hər bir sahəsi geniş, detallı şəkildə əksini tapmışdır. Bu üçcildlikdə xalqımızın çoxəsrlik tarixi, əkinçilik və maldarlıq mədəniyyəti, qədim məşğuliyyət növləri və sənət sahələri, maddi mədəniyyəti, ailə və ailə məişəti, xalq bayramları, qonaqpərvərlik adətləri, musiqi, din, ədəbiyyat, elm və təhsil, xalq təbabəti, ağsaqqalıq və ağbirçəklik institutu, ölçü vahidləri, rənglər, saylar və s. kimi məsələlər işıqlandırılmışdır. Akademik Teymur Bünyadovun baş redaktorluğu ilə ərsəyə gələn "Azərbaycan etnoqrafiyası" üçcildliyi hər kəsin üz tutduğu fundamental əsərdir. Bizi özümüzə tanıdan bir əsər…

Ömrünün bu müdrik çağında bir gənclik şövqü ilə zəhmətdən yorulmayan, elmi və bədii yaradıcılıq işlərini davam etdirən Teymur Bünyadovun gördüyü bütün işlər bizim gözümüzdə ən müqəddəs işdir. Mənəvi mədəniyyətin aşınmağa meyilləndiyi, maddi mədəniyyətin sürətlə dəyişdiyi dünyada Teymur Bünyadov özünün geniş spektrli yaradıcılığı ilə milli ruhumuzun istinadgahını yaratmış, bizi qürurlandırmışdır. Bu istinadgah Azərbaycan xalqını özünə tanıdır, millətimizdə keçmişə hörmət, rəğbət və gələcəyə inam hissi oyadır.

Allahın hikməti böyükdür. Nəyə nail olubsa, öz zəhmətinin, zəhmətkeşliyinin hesabına olan Teymur Bünyadova bəlkə elə uşaqlıq və gənclik illərindəki əziyyətinin, zəhmətinin müqabilində Allah bu qədər uzun, bu qədər sağlam ömür bəxş edib, özünü isə bu qədər sevilən, bu qədər şanslı edib! Gözü-könlü tox olan, içki içməyən, siqaret çəkməyən, yazmaqdan-oxumaqdan başqa heç nə ilə məşğul olmayan, xalqın sevgisindən başqa heç nəyə ehtiyac duymayan Teymur Bünyadovdan, özünün dili ilə desək, bu ölkədə varlı, şanslı adam varmı?!

Qarşıdan gələn 90 illik yubileyi münasibəti ilə akademik Teymur Bünyadovu ürəkdən təbrik edirik, ona uzun ömür, can sağlığı, bolluca uğurlar arzulayırıq. İnanırıq ki, Teymur müəllimin qarşıdakı illərdə də elmi-pedaqoji fəaliyyəti həm Azərbaycanın elm-təhsil sisteminin, həm də arxeologiya və etnoqrafiya elmlərinin inkişafına ciddi töhfələr verəcəkdir.

*Akif Musayev, i.e.d., prof.,*
*AMEA-nın müxbir üzvü*

# UNEC-in keyfiyyət elçiləri ilə görüş



UNEC-in rektoru, professor Ədalət Muradov keyfiyyət elçiləri ilə görüşüb.

Tədrisin keyfiyyətinin yüksəldilməsinin UNEC-in əsas hədəflərindən olduğunu bildirən rektor keyfiyyət elçilərinin bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirib, işlərin daha da təkmilləşdirilməsi üçün keyfiyyət elçiləri mexanizminin institutlaşmasının vacibliyini vurğulayıb. Keyfiyyət elçilərinin müəyyən olunan kriteriyalar əsasında seçiləcəyinə diqqət çəkən Ə.Muradov seçim zamanı onların Diferensial Əməkhaqqı Sistemindəki yerlərinin də əsas meyarlardan biri kimi götürüləcəyini vurğulayıb. Rektor UNEC-in müəllifi olduğu layihədən gələcəkdə digər ali təhsil müəssisələrinin də yararlana biləcəyini qeyd edib.

Görüşdə tədris prosesi zamanı müşahidə olunan mənfi və müsbət məqamlar müzakirə edilib və tədris prosesinin təkmilləşdirilməsi istiqamətində təkliflər dinlənilib. İctimai Nəzarət Şurasının yalnız imtahanlarda deyil, bütün tədris ili boyu UNEC-də fəaliyyət göstərəcəklərini nəzərə alaraq, onların keyfiyyət elçiləri ilə birlikdə dərsləri müşahidə etmələri təklif olunub. Bundan başqa, keyfiyyət elçilərinin UNEC-in Zaqatala filialı və Maliyyə İqtisad Kollecində də fəaliyyət göstərmələri, monitorinqin nəticələrinə əsasən yüksək nəticələr göstərən müəllimlərin nümunəvi dərslərinin təşkili, müəllimlərin peşəkar fəaliyyətlərinin təkmilləşdirilməsi istiqamətində təlimlərin keçirilməsi də təkliflər sırasında yer alıb.

Qeyd: Keyfiyyət elçiləri UNEC-də 2015/16-cı tədris ilindən fəaliyyət göstərir. Onların müəyyən edilməsində elektron universitet platformasından aktiv istifadə, müasir təhsil metodologiyasına və interaktiv tədris prosesinə yaxından bələd olmaq əsas götürülüb. Keyfiyyət elçiləri müəyyən olunan qrafik üzrə həftədə ən azı bir dəfə (növbə) fakültə üzrə dərslərin monitorinqində iştirak edir. Monitorinq tədrisin sillabuslarda və təqvim-tematik planlarda qeyd edilən mövzulara uyğunluğu, mühazirə mətnləri, interaktiv tədris vəsaitləri, müəllimlərin mövzuya hakimliyi, dərs vaxtının optimal şəkildə idarəedilməsi, seminar dərslərində mövzu üzrə praktiki nümunələrin izahı, kollokviumlara hazırlıq və digər göstəricilər əsasında aparılır.

# PAŞA Bank Euromoney beynəlxalq forumunda iştirak etdi

Azərbaycanın aparıcı korporativ bankı - PAŞA Bank Vyana şəhərində keçirilən Mərkəzi və Şərqi Avropa ölkələrinin illik beynəlxalq investisiya-bankçılıq forumunda növbəti dəfə iştirak etmişdir. İşgüzar tədbirin təşkilatçısı aparıcı biznes jurnalı Euromoney olmuşdur.

Öncəki illərdə olduğu kimi, bu dəfə də Forumun gündəliyinin əsasını Mərkəzi və Şərqi Avropa ölkələrinin maliyyə və iqtisadiyyat nazirliklərinin, dövlət tənzimləyici orqanlarının rəhbərlərinin, eləcə də aparıcı beynəlxalq bankların və işgüzar qurumların nümayəndələrinin çıxışları təşkil etmişdir. Bu il forumun işində bankirlər, investorlar, biznes konsultantlar, özəl səhm kapitalının, daşınmaz əmlakın, sığorta bazarlarının idarə edilməsi üzrə mütəxəssislər və digər ekspertlər də daxil olmaqla 1100-dən artıq nümayəndə iştirak etmişdir.

Forum çərçivəsində 2018-ci ildə maliyyə gündəliyində duran aktual məsələləri müzakirə etmək üçün Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, BNP Paribas, Societe Generale, Citi, Raiffeisen Bank və digər bu kimi beynəlxalq maliyyə təşkilatlarının nümayəndələri bir araya gəlmişdir.

Bu il forumun iştirakçıları əsas diqqəti region ölkələrində investisiya iqlimi, özəl sektora xarici investisiyaların cəlb edilməsi üçün şəraitin yaradılması üsulları və region ölkələrinin iqtisadiyyatı üçün hal-hazırda aktual olan digər əsas struktur məsələlərinin müzakirə edilməsinə yönəltmişdir. Tematik müzakirə panelləri çərçivəsində dəvət olunmuş ekspertlər region ölkələrində rəqəmsal alətlərin fəal şəkildə tətbiq edilməsi fonunda bu ölkələrin iqtisadiyyatının inkişaf perspektivləri, FinTek-lərin rolu və onların fəaliyyətinin ənənəvi bankçılığa təsiri, eləcə də yaxın gələcəkdə bizneslərin üzləşə biləcəkləri əsas iqtisadi risklər kimi bu gün üçün aktual olan bir sıra məsələləri müzakirə etmiş və fikir mübadiləsi aparmışdırlar.

"Mərkəzi və Şərqi Avropa ölkələrinin bank sektoru" adlı müzakirə panelindəki çıxışında PAŞA Bankın İdarə Heyətinin Sədri Taleh Kazımovun qeyd etdiyi kimi, inkişaf etməkdə olan iqtisadiyyatlarda texnologiyaların bank məhsulları bazarına inteqrasiya edilməsində banklar əsas hərəkətverici qüvvə olacaqdır.

«Bank sektorunun təhlükəsizliyini və dayanıqlı inkişafını təmin etmək üçün tənzimləyici orqan tərəfindən müəyyən edilmiş ciddi qaydalar üzündən start-up-lar və FinTek-lər bazarda paylarının həcmini genişləndirə bilmirlər. Bu potensialı dərk edərək, PAŞA Bank növbəti üç ili əhatə edən innovativ, çevik və müştəri yönümlü mühitdə müştərilərə xidmət göstərməyə imkan verən infrastrukturu və düşüncə tərzini formalaşdırmağa yönəlmiş yeni rəqəmsal strategiyanı hazırlamışdır.

Biz anlayırıq ki, ənənəvi bankçılıqdan rəqəmsal bankçılığa keçidi təmin etmək üçün bu, həm müştərilərin, həm də işçilərin düşüncə tərzinin dəyişməsini tələb edir, lakin biz bu rəqəmsal innovasiyanı bank sisteminə inteqrasiya etmək üçün geniş təcrübəyə malikik və güclü və müasir bank kimi formalaşmağı hədəfləyirik», - deyə T.Kazımov bildirdi.

# Təsərrüfat subyektləri rəhbərlərinin nəzərinə!

Sizi ölkədə həyata keçirilən iqtisadi islahatların mühüm istiqaməti olan şəffaflığın artırılmasında fəal iştirak etməyə və bu məqsədlə maliyyə hesabatlarınızın düzgünlüyünə əmin olmağınız üçün müstəqil auditorların xidmətlərindən istifadə etməyə çağırırıq.

Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və müvafiq dəstək göstərməyə hazırdır.

Xatırladırıq ki, qanunvericiliyin tələblərinə uyğun olaraq aşağıda göstərilən təsərrüfat subyektləri 2017-ci il üzrə maliyyə (mühasibat) hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün müstəqil auditor cəlb etməlidirlər:

| | | |
|---|---|---|
| **1.** | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.91.4) əsasən |
| **2.** | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.107.6) əsasən |
| **3.** | Banklar və digər kredit təşkilatları | "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununa (maddə 8, 9, 44, 45, 46 və s.) əsasən |
| **4.** | Sığorta təşkilatları və cəmiyyətləri | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununa (m.74) əsasən |
| **5.** | İnvestisiya fondları | "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununa (m.26) əsasən |
| **6.** | Maliyyə-sənaye qrupları | "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 10 iyun tarixli 123-IQ saylı Qanununa (m.16) əsasən |
| **7.** | Fond və birjalar | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.115.3) əsasən |
| **8.** | Qiymətli kağızların emitentləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.1078) əsasən |
| **9.** | Büdcədənkənar fondlar | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.115) əsasən |
| **10.** | İctimai əhəmiyyətli qurumlar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.12) əsasən |
| **11.** | Bələdiyyələr və bələdiyyə müəssisələri | "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 772-IQ saylı Qanununa (m.10,13), "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 2002-ci il 2 iyul tarixli 358-IIQ saylı Qanununa (m.11.14, 39.1) əsasən. |
| **12.** | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.12) əsasən |
| **13.** | Təbii inhisar fəaliyyəti subyektləri | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.12) əsasən |
| **14.** | Publik hüquqi şəxslər | "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ saylı Qanununa və onların nizamnamələrinə əsasən. |
| **15.** | Kənd təsərrüfatı kooperativləri | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli Qanununa (m.5.4) əsasən |
| **16.** | Siyasi partiyalar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.14.6) əsasən |

Xatırladırıq ki, Azərbaycan Respublikası "İnzibati Xətalar Məcəlləsi"nin 464-cü maddəsinə görə, qanunvericiliklə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə inzibati xəta haqqında protokol tərtib ediləcək və inzibati cərimələr tətbiq olunacaqdır.

Sərbəst auditorlar və auditor təşkilatları barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz (http://www.audit.gov.az).

*Azərbaycan Respublikasının Auditorlar Palatası*

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqova əzizi

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqova əzizi

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**